

## Fransa jurnalı
### Ağdamı tərk olunmuş 10 şəhər sırasına daxil edib

4

# Türk dünyasının birliyi yeni reallıqlar yaradıb

# Səs

№ 214 (6414) 24 noyabr 2021-ci il. Qiyməti 40 qəpik



3



## Koreya Statistika Komitəsi ilə əməkdaşlıq Dövlət Statistika Komitəsi üçün yeni imkanlar yaradıb

Noyabrın 23-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Koreya Respublikası Statistika Komitəsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. SİA-nın məlumatına... 6

# İrəvanda aksiyalara başlandı: ermənilər yeni müharibə istəyirlər?



7

## 2022-ci il üçün yaşayış minimumu təsdiqlənib

Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Büdcə zərfinin ikinci oxunuşda müzakirəyə çıxarıldığı iclasda... 6




## Xankəndi aeroportu nəzarətə götürüldü: Arayik Artunyan prokurorluğa təhvil verilə bilər

# Zidan PSJ-ni çalışdıracaq?



"Real"ın sabiq baş məşqçisi Zinəddin Zidan PSJ-yə rəhbərlik edə bilər. Bu barədə "Marca" nəşri məlumat yayıb. İddiaya görə, Paris klubunun futbolçuları hesab edirlər ki, 49 yaşlı mütəxəssis yaxın vaxtlarda komandaya baş məşqçi təyin olunacaq. Bildirilir ki, futbolçular arasında söhbətdə Zidanın adı tez-tez hallanır. Onlar klubda baş verənlərdən... 16



## Evdə COVID-19 xəstəsi varsa yoluxma riskini necə azaltmaq olar?

16

Bu səbəbdən yeni yoluxmuş insanın qaldığı evdə digərlərinin maska taxması lazımdır. Maskanı tez-tez dəyişdirmək...



## "Azərbaycan beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirir"

7

"Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə məhz Brüsseldə Şərq Tərəfdaşlığı sammiti çərçivəsində...

# Banqladeş Azərbaycanla münasibətlərə böyük önəm verir

## Prezident İlham Əliyev Banqladeşin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarkerin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Qousal Azam Sarker əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın enerji siyasətində əldə etdiyi uğurlarda Prezident İlham Əliyevin müdrik siyasətini yüksək qiymətləndirdiklərini vurğuladı. O qeyd etdi ki, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Daha sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində yaxşı siyasi dialoqun aparıldığını vurğuladı və Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin 2023-cü ilədək uzadılmasında Banqladeşin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələrin maraqlarının qorunması, COVID-19 ilə mübarizə, vaksinlərin ədalətli bölgüsü sahəsində fəal şəkildə böyük səylər göstərdiyini qeyd etdi.

Prezident İlham Əliyev tarixi torpaqlarımızın erməni işğalından azad edilməsi məsələsində həm Qoşulmama Hərəkatı, həm də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanın haqlı mövqeyinin Banqladeş tərəfindən dəstəkləndiyini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Qousal Azam Sarkerin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına və iqtisadi əməkdaşlığın prioritetlərinin müəyyənləşməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarker ölkəsinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini dedi.



## Müdafiə Nazirliyi: "Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən bölmələri tərəfindən hər hansı atəş açılmayıb"

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ordumuzun Kəlbəcər istiqamətində yerləşən bölmələrinin guya atəş açması nəticəsində erməni hərbçinin yaralanması ilə bağlı Ermənistan mətbuatında yayılan məlumatları təkzib edib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən bölmələri tərəfindən guya atəş açılması nəticəsində bir erməni hərbçisinin yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır. Bildiririk ki, həmin istiqamətdə bölmələrimiz tərəfindən hər hansı atəş açılmayıb, sakitlikdir".

## Prezident İlham Əliyev Filippinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabrenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Maria Elena Alqabre Filippin Prezidenti Rodriqo Roa Dutertenin və xalqının salamlarını dövlətimizin başçısına çatdırdı. O, Filippin dövlətinin başçısının ölkələrimiz arasında əlaqələri genişləndirmək istədiyini vurğuladı. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Filippin Prezidenti Rodriqo Roa Dutertenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippin dövlətinin başçısına və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanın da Filippinlə əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilədək uzadılması və bu təşkilat çərçivəsində Azərbaycanın irəli sürdüyü təşəbbüslərə, xüsusilə vaksinlərin ədalətli bölgüsü ilə bağlı təşəbbüsə Filippinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın mövqeyinin həmişə üzv ölkələrin maraqlarının qorunması və əlaqələrin möhkəmləndirilməsindən ibarət olduğunu vurğuladı. İkitərəfli münasibətlərə gəldikdə, dövlətimizin başçısı siyasi və iqtisadi sahələrdə əlaqələrin fəallaşdırılması, iqtisadi-ticari münasibətlərin qurulmasının vacibliyini qeyd etdi və Maria Elena Alqabrenin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin möhkəmlənəcəyinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə etdi.



Filippinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabre, ilk növbədə, Prezident İlham Əliyevi və Azərbaycan xalqını Zəfər Günü və ərazi bütövlüyünün bərpa olunması, həmçinin Milli Dirçəliş Günü münasibətilə təbrik etdi.

Maria Elena Alqabre səfirlik fəaliyyəti dövründə Azərbaycanla Filippin arasında həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə siyasi, iqtisadi əməkdaşlığın, eləcə də insanlar arasında əlaqələrin inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Səfir Azərbaycan Prezidentinin təşəbbüsü ilə COVID-19-a həsr olunan videokonfrans formatında Zirvə toplantısının, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin və bu günlərdə BMT Baş Assambleyasında COVID-19 və vaksinlərə dair qəbul olunmuş qətnamənin əhəmiyyətinə toxundu. Maria Elena Alqabre, həmçinin Azərbaycanın uğurlu iqtisadi inkişaf modeli haqqında danışaraq, ölkəmizin bu nailiyyətlərinin beynəlxalq təşkilatların hesabatlarında mütərəqqi nümunə kimi əks olunduğunu qeyd etdi.

# Türk dünyasının birliyi yeni reallıqlar yaradıb

## İlham Əliyev: "1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur"







Qloballaşan dünyamızda türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Bu yaxınlarda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü türkdilli dövlətlərin əlaqələrinin və əməkdaşlığın daha da gücləndirilməsində əhəmiyyətə malikdir. Əlbəttə ki, 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da sıxlaşdırmış oldu.

Azərbaycan iki il Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Zirvə görüşündə bilavasitə pandemiyaya qarşı mübarizə çərçivəsində iqtisadi, sosial və humanitar sahələrdə əməkdaşlıq prinsipləri, həyata keçirilən tədbirlər, təhlükəsizliyin və sağlamlığın qorunması, həmçinin pandemiyadan sonra iqtisadi tənəzzüldən qurtulmaq üçün atılacaq addımlar müzakirə edildi. Əlbəttə ki, bu, zamanında atılmış addım idi.

### ”TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ TƏKCƏ ÖLKƏLƏRİMİZ, XALQLARIMIZ ÜÇÜN DEYİL, DÜNYA ÜÇÜN ÖNƏMİ BUNDAN SONRA DA ARTACAQ”

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə qurumun adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırılmasının da əhəmiyyətini qeyd etməliyik. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev ”Biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var”, - deyə bildirib. Dövlət başçısı qeyd edib ki, bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir: ”Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq”.

### TÜRKDİLLİ ÖLKƏLƏR ARASINDAKI TİCARƏT DÖVRİYYƏSİ 21 MİLYARD DOLLAR TƏŞKİL EDİR

Təbii ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək olmuşdur. Naxçıvanda qəbul edilən qərarlarla türk dünyasının birliyi bu müddət ərzində daha da möhkəmlənib, üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri də inkişaf etmişdir. Nəqliyyat və s. sahələrdə əməkdaşlıq uğurla reallaşmışdır. Əlbəttə ki, siyasi və ictimai həmrəyliklə yanaşı, iqtisadi və ticari əlaqələr də güclənməsi, mövcud münasibətlərin təməlini daha da möhkəmləndirib. Hazırda türkdilli ölkələr arasındakı ticarət dövriyyəsi 21 milyard dollar təşkil edir. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı-Aktau bərəyolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşımaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib.

Onu da vurğulayaq ki, türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Tarixi, qlobal layihə olan Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirməkdədir.

### “ZƏNGƏZUR KORİDORU İSƏ HƏM TÜRK DÜNYASINI, HƏM AVROPANI, HƏM QONŞULARIMIZI BİRLƏŞDİRƏ BİLƏCƏK BİR LAYİHƏDİR”

Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsi bütün dünyaya ölkəmizin gücünü göstərmiş oldu. Bu gün işğaldan azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. ”Bu bölgələrin - Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, - körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları, - bütün bu işlərdə fəal iştirak edirlər”, - deyə Azərbaycan Prezidenti bildirib. Füzuli Beynəlxalq Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə yanaşı, 12 türk şirkətinin iştirakı fikirlərimizi əsaslandırır. Bununla yanaşı, Zəngilan Hava Limanının inşasında da Türkiyə şirkətləri iştirak edirlər.

Cənab Prezidentin bildirdiyi kimi, ”İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. O cümlədən hesab edirəm ki, nəqliyyat baxımından Zəngəzur koridorunun açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır”. Bu gün Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi böyük əhəmiyyətə malikdir. ”Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir”, - deyən Cənab Prezident bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlərin getdiyini diqqətə çatdırıb. Naxçıvan zirvəsindəki çıxışını xatırladan dövlət başçısı bildirib ki, o zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xatırlatmaq hər kəs görə bilər: ”Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq.”

*Nəzakət ƏLƏDDİNQIZI*



# “Kamboca Azərbaycana dost ölkədir”

*Prezident İlham Əliyev Kambocanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Henq Measın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Kim Henq Meas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.**



Kambocanın Azərbaycana dost ölkə olduğunu deyən dövlətimizin başçısı Azərbaycan tərəfinin münasibətlərin inkişafında maraqlı olduğunu vurğuladı. Azərbaycanla Kamboca arasında çox yaxın siyasi əlaqələrin mövcud olduğunu deyən dövlətimizin başçısı səfir Kim Henq Measın ölkələrimizin biznes dairələri arasında da əməkdaşlığın qurulması işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev, eyni zamanda, humanitar sahədə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Xoş sözlərə görə təşəkkürünü bildirən səfir Kim Henq Meas Kambocanın Kral həzrətləri Norodom Sihamoninin salamlarını və firavanlıq arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı.

Prezident İlham Əliyev Norodom Sihamoninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kral həzrətlərinə çatdırmağı xahiş etdi.

Səfir Kim Henq Meas ölkələrimiz arasında regional və beynəlxalq təşkilatlar çərçivəsində yüksək səviyyədə əlaqələrin olduğunu vurğulayaraq fəaliyyəti dövründə Kamboca-Azərbaycan dostluq münasibətlərinin və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.

# Prezident İlham Əliyev Çilinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkosun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Rodriqo Arkos etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.**





Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı Azərbaycanla Çilinin beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli formatda əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat sahələrində əlaqələrin qurulmasının önəmini vurğulayaraq biznes dairələri arasında əməkdaşlığın yaradılmasının vacibliyini bildirdi, bu baxımdan ölkələrimiz barədə məlumatların insanlara çatdırılmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin 2023-cü ilə qədər uzadılması ilə bağlı Çilinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi, Azərbaycanın bundan sonra da sədr kimi Qoşulmama Hərəkatına üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Rodriqo Arkos ölkəsinin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatına və Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyi ilə bağlı təbriklərini çatdırdı. Səfir Rodriqo Arkos Azərbaycanla Sakit Okean Alyansında müşahidəçi statusunda münasibətlərə xüsusi əhəmiyyət verdiklərini bildirdi, post-COVID dövründə ölkələrimiz arasında daha sıx əlaqələrin qurulacağına əminliyini ifadə etdi.

# Fransa jurnalı

## Ağdamı tərk olunmuş 10 şəhər sırasına daxil edib

**Azərbaycanda dağlarla əhatə olunmuş XVIII əsr şəhəri olan Ağdam bu ölkə ilə Ermənistan arasında baş vermiş münaqişə zamanı dağıdılıb, talan edilib, şəhərdən yalnız xarabalıqlar qalıb.**

AZƏRTAC xəbər verir ki, bu fikir Fransanın ”Admagazine” jurnalının internet səhifəsində dərc edilmiş ”Böyük təəccüb doğuran 10 tərk edilmiş şəhər” sərlövhəli məqalədə yer alıb.

Məqalədə dünyanın ən çox dağılmış 10 şəhəri təqdim olunub. Bu şəhərlər arasına 30 ilə yaxın erməni işğalı altında qalmış, ”Qafqazın Xirosiması” adlandırılan Ağdam şəhəri də daxil edilib. Siyahıda yer almış şəhərlərin əksəriyyəti təbii fəlakətlərə görə tərk edilib. Yeganə olaraq Ağdam erməni işğalı zamanı dağıdılmış şəhər kimi təqdim olunub.



Les 10 villes abandonnées les plus





# Azərbaycanın xarici siyasət modeli - diplomatik korpusların sayı artırılmaqdadır

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" imzaladığı Sərəncam reallığın təsdiqidir

Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Bu, real faktordur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti dövründə planlı, qətiyyətli və parlaq dialomatik siyasət aparıb və 30 il torpaqlarımızın 20 faizinin düşmən əsarətində olmasını "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin canı və qanı bahasına 44 gün ərzində "Qarabağ Azərbaycandır" nidasını qoyaraq Zəfər Qələbəsi qazandı. Başqa yol da ola bilməzdi. Və bu gün Azərbaycan qətiyyətli nizamlı siyasəti ilə minalanmış ərazilərin xəritələrini Ermənistandan bir-bir alaraq öz hədəflərimizə çatmalıyıq və bu hədəflərə ardıcıl olaraq çatırıq da! Çünki bütün şərtləri qaliblər diktə edir və Azərbaycan Prezidenti İlham Əliyev də bütün şərtləri diktə edən tərəfdir. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycanın diqtəsi ilə hərəkət etməkdən başqa bir çarəsi yoxdur, bunu öz xoşları ilə etməsələr, məcburən edirəcəyik".

Ən əsası isə, İkinci Vətən Müharibəsinin 44 günlük müharibə dostun düşmənin kim olduğunu da sübut etdi, onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin qonşu dövlətlər - Rusiya, İran və Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 18 illik prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur.

### Azərbacanın uğurlu diplomatik siyasəti

Bu gün Azərbaycan Prezidentinin apardığı daxili və xarici siyasət ölkəmizin mənafelərinin bütün beynəlxalq təşkilatlarda və dövlətlərarası münasibətlərdə cəsarətlə qorunmasına, xalqın böyük etimad və hörmətinin qazanılmasına gətirib çıxarıb. Xüsusilə də qeyd edək ki, 2010-2020-ci illər ərzində Azərbaycanın xarici siyasət sahəsində mühüm uğurlar əldə olunub. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə mötəbər əhəmiyyətli regional və qlobal müstəsnalıq kəsb eləyən tədbirlər həyata keçirilib. Bu tədbirlər daha çox ölkəmizin diplomatik siyasi müstəvidə mövqelərinin möhkəmlənməsinə xidmət edib. Həmçinin, Azərbaycanda multikulturalizmin ənənələrinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sivilizasiyalararası forumlar, humanitar forumlar və digər bu səpkidə olan tədbirlər keçirilib. Bu tədbirlər ölkəmizdə olan tolerantlıq mühitinin birgə yaşayış qaydalarının tarixə söykəndiyini və heç bir etnik, dini zəmində münaqişənin olmadığı haqqında məlumatlar siyasi ekspertlərə, bu sahədə tədqiqat aparan şəxslərə, dövlət və hökumət başçılarına çatdırılıb. Bu illər ərzində Azərbaycanın xaricdə çoxsaylı səfirlikləri, fəxri konsullluqları açılıb. Təbii ki, bu, ölkəmizin xaricdə təbliğat işinin möhkəmləndirilməsinə xidmət edən addımlardan biridir. Bununla yanaşı, həm də xaricdə yaşayan vətəndaşlarımızın hüquqlarının qorunması baxımından mühüm aktuallıq kəsb edir. Digər tərəfdən, bir ölkənin səfirliklərinin sayının çox olması həmin dövlətin iqtisadi qüdrətinin göstəricisidir. Eyni zamanda, səfirliklərin olması həmin ölkə ilə siyasi münasibətlərin ən yüksək səviyyədə olmasından asılıdır. Həmçinin, ölkəmizin artan regional və qlobal əhəmiyyətini nəzərə alan digər geosiyasi aktorlar da ölkəmizdə çoxsaylı səfirliklərin açılmasına təşəbbüs göstəriblər. Bu da təbii ki, Azərbaycanın geosiyasi baxımdan regionda əhəmiyyətinin göstəricisidir.

Bu günlərdə, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 22-də Finlandiya, Nigeriya, Uqanda, Portuqaliya Respublikalarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərini qəbul etməsi, yeni səfiryin açılması ilə bağlı Sərəncam imzalaması Azərbaycan beynəlxalq aləmdə sözünə etibar olunan ölkə olması ilə yanaşı, dünyanın bir çox dövlətlərinin hesablaşacağı nüfuzlu ölkəyə çevrildiyinin göstəricisidir.

Sərəncama əsasən, Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etmək tapşırılıb.

Xarici İşlər Nazirliyi isə Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq edəcək.

Bir sözlə, müasir beynəlxalq münasibətlər sistemində diplomatik korpusların sayının artması Azərbaycanın gələcəkdə ölkəmizin təbliğatının daha da genişlənməsinə imkan yaradacaq,

**RƏFİQƏ KAMALQIZI**

# Rumıniya KİV-i

## Prezident İlham Əliyevin Brüsseldə Ermənistanın baş naziri ilə görüşəcəyi barədə yazır


DIGI 24 HD POLITICĂ ACTUALITATE ECONOMIE EXTERNE SPORT TV MAGAZIN MAI MULTE

HOME > Știri > Externe > Uniunea Europeană va modera o discuție între liderii Armeniei și Azerbaidjanului, după recentul conflict sângeros dintre cele două țări

**Uniunea Europeană va modera o discuție între liderii Armeniei și Azerbaidjanului, după recentul conflict sângeros dintre cele două țări**

19.11.2021 23:27

Charles Michel, președintele Consiliului European. Foto: Dan Kitwood/ Getty Images

**Liderii Armeniei și Azerbaidjanului se vor întâlni la mijlocul lunii decembrie, la Bruxelles, pentru a discuta despre tensiunile care au dus la confruntări la granița dintre cele două țări, într-o nouă încercare de a găsi căi de a soluționa conflictul, relatează Reuters.**

„Cei doi lideri au fost de acord să se întâlnească la Bruxelles pentru a discuta situația regională și modalități de a depăși tensiuni pentru un Caucaz de sud mai prosper și mai stabil, sprijinit de Uniunea Europeană", a anunțat un purtător de cuvânt al președintelui Consiliului European,

TOP CITITE
1 Coronavirus România, INFORMAȚII OFICIALE: 1.758.068 de infectări și 54.624 de persoane...

Rumıniyanın qabaqcıl "Digi 24" xəbər portalı Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin Brüssel Zirvəsi çərçivəsində Aİ-nin vasitəçiliyi ilə iki ölkə liderinin görüşünün təşkili təklifinə Azərbaycan tərəfindən razılıq verildiyi barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda Aİ Şurasının Prezidentinin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə noyabrın 19-da telefon danışığının baş tutduğu qeyd olunub. Bildirilib ki, Aİ Şurasının Prezidenti bu il dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə Görüşü çərçivəsində hər iki ölkə liderinin görüşünün təşkil edilməsi təklifi ilə çıxış edib.

# Kolumbiya mətbuatı Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən və bölgənin gələcəyinə dair vizyonundan yazıb



Roberto Trobajo en Shushá

Los azerbaiyanos se vieron obligados a sacar, por la fuerza, a los renuentes armenios; desencadenándose una guerra que duró 44 días, hasta que lograron expulsar a los ocupantes de Karabaj...que siempre fue y es de Azerbaiyán.

Kolumbiyanın nüfuzlu siyasi xəbər agentliklərindən olan "LaOtraCara" portalında azad olunmuş ərazilərimizdə səfərdə olmuş tanınmış kolumbiyalı jurnalist Roberto Trobaxonun ölkəmizin Vətən müharibəsindəki tarixi Qələbəsi, azad olunmuş ərazilərimizdəki erməni vandalizmi və burada Azərbaycan tərəfindən görülən işlər, eləcə də bölgənin gələcəyinə dair ölkəmizin vizyonu barədə "Qaliblər barış əlini uzadır" başlıqlı məqaləsi dərc olunub.

Azərbaycanın Kolumbiyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalədə ilk olaraq, Azərbaycanın ötən il 44 gün davam edən müharibə nəticəsində 30 ilə yaxın Ermənistan silahlı qüvvələri tərəfindən qeyri-qanuni işğalda saxlanılan torpaqlarını azad etməyə nail olduğu barədə məlumat verilir.

Müəllif bölgəyə səfəri zamanı şahid olduğu mənzərələrə də istinad edərək işğal müddətində Azərbaycan ərazilərində Ermənistan tərəfindən genişmiqyaslı dağıntıların törədildiyini və burada kütləvi minalanma aparıldığını bildirir.

Yazıda, həmçinin Şuşa şəhərinin ölkəmizin tarixi və mədəniyyətindəki müstəsna önəmi və şəhər işğaldan azad olunarkən Azərbaycan Silahlı Qüvvələrinin nümayiş etdirdiyi misilsiz rəşadət haqda danışılır, burada bitən Xarıbülbül gülünün Azərbaycanın qələbə simvoluna çevrildiyi qeyd olunur və ölkəmiz tərəfindən aparılan intensiv yenidənqurma işləri sayəsində işğaldan azad olunmuş digər Azərbaycan əraziləri kimi Şuşanın da sürətlə dirçəlməkdə olduğu vurğulanır.

Sonda Azərbaycanın bölgədə davamlı sülh və əməkdaşlıq mühiti arzuladığı, bunun üçün Ermənistanı qonşularına münasibətdə ərazi iddialarını kənara qoyaraq Azərbaycanın ərazi bütövlüyünü tanımağa və bölgədə sabitlik və inkişaf naminə birlikdə çalışmağa dəvət etdiyi qeyd olunur.



# Koreya Statistika Komitəsi ilə əməkdaşlıq Dövlət Statistika Komitəsi üçün yeni imkanlar yaradıb

## Tahir Budaqov koreyalı nümayəndə heyəti ilə görüşüb



Noyabrın 23-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Koreya Respublikası Statistika Komitəsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. SİA-nın məlumatına görə, görüşdə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlər, o cümlədən 2018-ci ildə Koreya Statistika Komitəsinin dəstəyi ilə yaradılmış "Azərbaycanın Statistik İnformasiya Xidməti - ASİS"in təkmilləşdirilməsi, inzibati məlumatların idarə olunması, elektron təlim portalının hazırlanması ilə bağlı 2021-ci ildə görülmüş işlər haqqında məlumat verilib, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Rəsmi statistika sahəsində son illər Azərbaycanda həyata keçirilən islahatlar barədə məlumat verən Komitə sədri qeyd edib ki, statistik məlumatların istehsalı, xüsusilə məlumatların yayımı prosesində daha üstün təcrübəyə malik Koreya Statistika Komitəsi ilə əməkdaşlıq Dövlət Statistika Komitəsi üçün yeni imkanlar yaratmış, rəsmi statistika sistemində vahid platforma üzərində metaməlumatlarla müşayiət olunan məlumat bazalarının yaradılması, onların müasir yayım standartlarına uyğun istifadəçilərə təqdim olunması məqsədilə Azərbaycanda ASİS-in yaradılaraq istifadəyə verilməsi və onun inkişafı mühüm əhəmiyyətə malikdir.

O, əvvəlki illərdə həyata keçirilmiş layihələr üzrə nəzərdə tutulan tədbirlərin, eləcə də Dövlət Statistika Komitəsində təlim otağının yaradılmasının, statistik təlim modullarının hazırlanmasının, 30-dan çox Komitə əməkdaşına Koreyada təlimlərin keçirilməsinin Azərbaycanda statistik kadr potensialının gücləndirilməsinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb, hazırkı Memorandumda qarşıya qoyulmuş vəzifələrin də uğurla icra olunacağına əminliyini ifadə edib.

Səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirən Koreya Statistika Komitəsi sədrinin müavini Kwang Sup Kim qurumlar arasında münasibətlərin səmərəli əməkdaşlıq ruhunda qurulduğunu bildirib.

# Vaan Unanyan: "Türkiyə ilə münasibətləri tənzimləməyə hazırıq"

"Rəsmi İrəvan Ankara ilə münasibətləri tənzimləməyə hazır olduğu barədə Moskvanı məlumatlandırıb". SİA xəbər verir ki, bunu Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Unanyan bildirib.

"Bir sıra beynəlxalq tərəfdaşlar, o cümlədən müttəfiqimiz Rusiya Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesini dəstəkləməyə hazır olduqlarını açıqladı. Rusiyalı tərəfdaşlarımızla müzakirələr zamanı biz ilkin şərt olmadan münasibətləri normallaşdırmağa hazır olduğumuzu bildirdik. Ermənistan Türkiyə ilə münasibətləri ilkin şərt olmadan nizamlamağa həmişə hazır olub. Amma hələlik Türkiyə ilə heç bir danışıqlar aparılmır" deyə, o bildirib.



*Aysel Məmmədova*

# 2022-ci il üçün yaşayış minimumu təsdiqlənib



**Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Büdcə zərfinin ikinci oxunuşda müzakirəyə çıxarıldığı iclasda hökumət üzvləri də iştirak ediblər. İclasda 24 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb.**

Bir sıra mühüm məsələlərə toxunan deputatlar Soltan Məmmədov, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Tural Gəncəliyev, Razi Nurullayev, Zahid Oruc, Fazil Mustafa, Tahir Kərimli, Siyavuş Novruzov əsasən bu günlərdə Fransa Senatında rəsmi şəxslərin erməni separatçılarını qəbul etməsini kəskin qınayıblar. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki separatçıların Fransanın bəzi rəsmiləri səviyyəsində "rəsmi qonaq - nazir və parlament spikeri" kimi qəbul edilməsi qətiyyətlə pislənilib. Bu hadisə postmüharibə dövründə Cənubi Qafqazda yaranmış yeni reallıqları düzgün qiymətləndirməməyin və ikili standartların təzahürü, bölgədə sülhün gəlişini əngəlləməyə hesablanmış qərəzli addım kimi dəyərləndirilib. Bildirilib ki, bu kimi hallar Cənubi Qafqazdakı yeni reallıqlar şəraitində Fransanın əməkdaşlıq imkanlarını məhdudlaşdırır.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Sahibə Qafarova xatırladıb ki, ikinci oxunuşda parlamentə təqdim olunmuş 24 məsələdən 22-si gələn ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Plenar iclasda ikinci oxunuşa təqdim olunmuş qanun layihələrinə bu oxunuşun prosedur qaydalarına uyğun surətdə baxılıb.

"Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" (ikinci oxunuş) məsələni təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi barədə birinci oxunuş zamanı həm hökumət üzvləri, həm də parlamentarlar tərəfindən ətraflı məlumat verilib. Plenar iclasda birinci oxunuş zamanı müzakirələrdə 28 deputat çıxış edib. Büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuş üçün komitələrdə müzakirəsi geniş formada təşkil edilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bütün komitələrin deputatlarının və aidiyyəti dövlət orqanlarının iştirakı ilə ətraflı müzakirələr aparılıb və sənədə müsbət rəy verilib. İclasda, həmçinin deputatları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilib, suallara cavab verilib.

Layihədə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi gəlirlərinin 26 milyard 816 milyon manat, xərclərinin isə 29 milyard 879 milyon manat məbləğində nəzərdə tutulduğunu xatırladan komitə sədri büdcədəki bir sıra mühüm göstəriciləri də təkrarən xatırladıb. Parlamentin komitə və plenar iclaslarında aparılan geniş və peşəkar müzakirələri Milli Məclislə hökumət arasında olan səmərəli əməkdaşlığın mühüm göstəricisi kimi dəyərləndirib. Bir daha əminliyini bildirib ki, 2022-ci ilin dövlət büdcəsi dövlətin növbəti ildə ölkəmizin qarşısında duran hədəflərə çatmasına və yaranacaq çağırışlara cavab verməsinə lazımi maliyyə imkanı yaradacaq. Sonra iclasda müzakirələr başlanıb.

"Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə ikinci oxunuşda münasibət bildirən Vüqar Bayramov, Tahir Kərimli, Sabir Rüstəmxanlı, Elşad Mirbəşir oğlu, Jalə Əliyeva, Bəxtiyar Əliyev, Tahir Rzayev, Naqif Həmzəyev, Aydın Hüseynov, Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Fazil Mustafa, Cəbi Quliyev, Səttar Möhbalıyev, Eldar İbrahimov, Sadiq Qurbanov, İltizam Yusifov, Tural Gəncəliyev, İsa Həbibbəyli, Etibar Əliyev, Azər Kərimli, Aqil Məmmədov qanun layihəsi barədə rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar. Təmsil etdikləri bölgələrdəki problemlərin həllinin büdcədə nəzərə alınmasına çalışıblar. İnflyasiya, süni qiymət artımı, bahalaşma, inhisarçılıq, xüsusən regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi, investisiyaların səmərəliyinin artırılması və sair ilə bağlı məsələ qaldırıblar.

Çıxışlarda müstəqillik tariximizin ən böyük həcmli büdcəsi olan 2022-ci ilin dövlət büdcəsi Azərbaycanın iqtisadi gücünün və potensialının, gələcək üçün atılacaq addımların sübutu kimi qiymətləndirilib. Bildirilib ki, xüsusilə gəlirlər və xərclər istiqaməti üzrə büdcə rasional şəkildə tərtib olunub. Milli prioritetlər olaraq müəyyənləşdirilmiş bütün sahələrin inkişafı üçün vacib məsələlər, eləcə də dünyada gedən proseslərlə əlaqədar yeni çağırışlar nəzərə alınıb.

Qeyd olunub ki, Böyük Qayıdış ilinin büdcəsi olmaqla 2022-ci ilin büdcəsi böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malikdir. Yeni büdcə zərfində əvvəlki illərdə olmayan bir çox yeniliklər öz əksini tapıb. Azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması üçün 2,2 milyard manat vəsaitin ayrılması həm xalqımız tərəfindən böyük rəğbətlə qarşılanıb, həm də beynəlxalq miqyasda işgüzar dairələrin ciddi marağına səbəb olub.

Sonra iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək büdcə zərfi ilə bağlı deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, suallara cavab veriblər. Səsvermə zamanı 17 maddədən ibarət olan "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə ikinci oxunuşda qəbul olunub.

Sonra iclasda "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Məsələni təqdim edən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, qanun layihəsində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2022-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 5 milyard 307 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 429 milyon manat və ya 8,8 faiz çoxdur.

Plenar iclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov məşğulluq məsələləri, regionlarda yeni iş yerlərinin yaradılması və sair ilə bağlı deputatların qaldırdıqları məsələlərə ətraflı şərh verib, konkret faktlara istinadən görülmüş işləri deputatların nəzərinə çatdırıb.

Deputatlar 6 maddədən ibarət "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsinə ikinci oxunuşda müsbət münasibət bildiriblər.

Sonra iclasda Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla 180 milyon 375 min 536 manat məbləğində nəzərdə tutulub. Deputatlar müzakirə zamanı layihəni dəstəkləyiblər, mətndə dəyişiklik yoxdur.

Müzakirə zamanı deputat Əli Məsimli ölkədə işsizliyin faizi ilə bağlı fikir və mülahizələrini bölüşüb. Sonra 5 maddədən ibarət "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub. Bununla da Milli Məclisin növbəti iclası başa çatıb. Bu gün Milli Məclisdə büdcə zərfindəki qanun layihələrinin ikinci oxunuşda müzakirələri davam etdiriləcək.

# İrəvanda aksiyalara başlandı: ermənilər yeni müharibə istəyirlər

**Başqa cür olanda isə artıq günahı da Azərbaycanda axtarmamalıdırlar bu isə faktdır!**



**2020-ci ilin noyabrında imzalanmış və Ermənistanın kapitulyasiya aktı kimi tarixə düşmüş üçtərəfli bəyanatdakı şərtlərin düşmən tərəfindən icra olunmaması ilə yanaşı, ölkənin bir sıra ictimai-siyasi adamları, eləcə də KİV nümayəndələri 22 noyabrın səhər saatlarından başlayaraq İrəvanın müxtəlif küçələrinə tökülüşüblər və onlar Ermənistan hakimiyyətinə qarşı tələblər irəli sürürlər.**

SİA xəbər verir ki, aksiyalar haqqında məlumat verən "Sputnik Armeniya" saytı küçələrə çıxan aksiyaçıların hökumətdən Sünikdə (Zəngəzurda) "milli maraqların müdafiəsini" tələb edirlər. Bir neçə küçələrdə isə gediş-gəliş yollları ümumiyyətlə bağlanılıb. Aksiya təşəbbüskarlarının siyasi partiyaların və ictimai təşkilatların olduğu bildirilir.

### Daha əvvəl Zoqrabyan özünün Facebook səhifəsində "azadlıq hərəkatına" başlanıldığını bildirmişdi

Adıçəkilən sayta açıqlama verən "Zartonk" (Dirçəliş) partiyasının sədri, vəkillər palatasının sabiq rəhbəri Ara Zoqrabyan və onun tərəfdarları aksiyalarını İrəvanın Arşakunyants prospektində keçirirlər. Daha əvvəl Zoqrabyan özünün Facebook səhifəsində "azadlıq hərəkatına" başlanıldığını bildirmişdi və məqsədlərinin erməni maraqlarına zidd olan sərhədlərin delimitasiyası və demarkasiyasına qarşı çıxmaq, eləcə də imzalanacaq sənədlərin ictimailəşdirilməli olduğunu yazmışdı. Onun sözlərinə görə hərəkatın iştirakçıları hakimiyyətdən "Ermənistanın ərazi bütövlüyünü müdafiə etmək" tələbini irəli sürürlər.

Açıq-aşkar revanşçılıq hissini əks etdirən bu kimi aksiyada çıxış edən erməni partiya sədri bir az da irəliyə gedərək həyasızlıqla Zəngəzurdan başlayaraq Qarabağa qədər "təhlükəsizliklərinin təmin olunmasını" tələb edir. O, aksiyalarının davamlı olacağını və tələblərinin yerinə yetiriləcəyi vaxta qədər uzanacağını bildirib.

### Aksiya iştirakçıları İrəvanın "Respublika" meydanında piket keçirəcəklərini bildirirlər

İrəvanın Myasnikyan prospektində isə səhər saatlarından yollar bağlanıb. "Kamk" (İradə) hərəkatının lideri Vaaqn Çaxalyan və "Sasna srer" qrupunun üzvü Pavlik Manukyan, eləcə də aksiya iştirakçıları erməni xalqını Ermənistanın maraqlarını qorumağa çağırırlar. Onlar əllərində "Mən əhəmiyyətsiz deyiləm", "Mən müdafiəsiz deyiləm" şüarlar yazılmış plakatlar tutublar.

Jurnalist və ictimai fəal Nairi Oxikyan və tərəfdarları isə "Qələbə" körpüsü üzərində etiraz aksiyalarını keçirirlər. Onlar Zəngəzur dəhlizinin açılmasına qarşı şüarlar səsləndirirlər. Polis nümayişçiləri ərazidən uzaqlaşdırır. Aksiya iştirakçıları İrəvanın "Respublika" meydanında piket keçirəcəklərini bildirirlər.

"5165" hərəkarının rəhbəri Karin Tanoyan da eyni tələblərlə küçəyə çıxıb və tərəfdarları ilə İrəvanın mərkəzində aksiyalar keçirəcəklərini sosial şəbəkədə yazıb. Bütün bu kimi aksiyalar və etirazlar isə müharibədən ağır məğlubiyyətlə çıxmış erməni xalqını daha pis situasiyalara doğru sürükləyir.

### Ermənilərə vaxt verilib və onlar həmin vaxtdan öz ölkələri və gələcəkləri naminə doğru nəticələr çıxarmalıdırlar

Söz yox ki, üçtərəfli bəyanatda əks olunan bəndlərin hər biri icra edilməlidir və əks halda Ermənistanı daha ağır vəziyyətlər gözləyəcək. Daha dəqiq desək, revanşçılıq və qisas hissi ilə ortaya düşən bu kimi sözdə ictimai-siyasi xadimlər əslində müharibə tələbləri ilə çıxış edirlər və bu aksiyalara başqa cür ad da verməyək olmaz. Hər halda, ermənilərə vaxt verilib və onlar həmin vaxtdan öz ölkələri və gələcəkləri naminə doğru nəticələr çıxarmalıdırlar. Başqa cür olanda isə artıq günahı da Azərbaycanda axtarmamalıdırlar bu isə faktdır!

*Rövşən RƏSULOV*

# "Azərbaycan beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirir"



"Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə məhz Brüsseldə Şərq Tərəfdaşlığı sammiti çərçivəsində dekabr ayının 15-də Ermənistan və Azərbaycan liderlərinin görüşü nəzərdə tutulmuşdur. Bir daha qeyd edirəm ki, bu təşəbbüs Şarl Mişel tərəfindən irəli sürülüb". Bunu millət vəkili Cavid Osmanov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan hər zaman olduğu kimi, bu təşəbbüsə öz müsbət mövqeyini bildirdi və dekabr ayının 15-də ikitərəfli görüşün keçirilməsini qəbul etdi: "Bu, o deməkdir ki, Azərbaycan hər zaman olduğu kimi, beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirir. Bütün təmaslara açıq olduğunu nümayiş etdirməklə bölgədə sülhün əmin-amanlığın bərqərar olunması üçün bütün təmaslarda iştirak etməsini açıq şəkildə ortalığa qoymuş oldu. Əlbəttə ki, belə bir görüşün məhz gələcəkdə iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində, yəni burada sərhədlərin delimitasiya və demarkasiyası məsələsi dayanır, ərazi bütövlüklərinin tanınması və sülh sazişinin imzalanması kimi vacib məsələlərdə atılacaq bir addım kimi qiymətləndirmək olar. Bu görüşün keçirilməsinə razılıq verməsi Azərbaycanın bir daha qeyd edirəm ki, bölgəyə sülhün əmin-amanlığın gətirilməsi üçün atdığı bir addımdır".

*Gülyana*

# YAP dünənin, bu günün və gələcəyin partiyası olduğunu təsdiqləyir

## Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir





**Noyabrın 23-də YAP Xətai rayon təşkilatı Nəsrəddin Tusi küçəsi 128, General Şıxlınski küçəsi 11, General Mehmandarov küçəsi 9 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.**

Yığıncaqlarda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 29 ili tamam oldu. Partiyanın yarandığı dövrün reallıqlarına nəzər salaraq bir daha bu fikri qeyd edə bilərik ki, YAP zamanın tələbi, xalqın istəyi ilə siyasət meydanına atılıb: "Ən əsası partiya yarandığı gündən ümumxalq partiyasına çevrilib, Azərbaycanın bu günü və sabahı üçün gərəkli adımları ilə diqqətdə olub, milyonların sevgiini və etimadını qazanıb. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı həm ölkəmizin, həm də Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin əsasını qoydu. Bu o dövr idi ki, ölkədə xaos, anarxiya, özbaşınalıqlar baş alıb gedir, vətəndaş qarşıdurması dərinləşir, torpaqlarımız işğal edilir, Azərbaycanın müstəqilliyi sual altında idi. Belə çətin dövrdə yaranan Yeni Azərbaycan Partiyasının 6 aydan sonra iqtidar partiyasına çevrilməsi dünya praktikasında olmayan hadisə idi. 29 il Yeni Azərbaycan Partiyasının sözlə əməl birliyinə bələdçilik etdi. Partiyanın Sədri, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanan inkişaf, tərəqqi yolu son 18 ildə onun layiqli davamçısı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycana möhtəşəm uğurlar qazandırdı. Ümummilli Lider 2003-cü ildə xalqa müraciətində növbəti dövr üçün inam və etimadın ünvanını göstərərək cənab İlham Əliyevə özü qədər inandığını bildirmişdi. Eyni zamanda, özünün başa çatdıra bilmədiyi taleyüklü məsələləri cənab İlham Əliyevin xalqın dəstəyi ilə həll edəcəyinə inamını ifadə etmişdi. Ulu öndər Heydər Əliyevin bu inamı

Yeni Azərbaycan Partiyasının da gələcəyi ilə bağlı idi. Ümummilli Lider Yeni Azərbaycan Partiyasını dünənin, bu günün, gələcəyin partiyası adlandırırdı. Ötən 29 il özündə bütün bu inamların reallıqda öz əksini tapdığının təqdimatıdır. Bu müddətdə Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyası olduğunu təsdiqlədi."

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, öz adını tarixə qələbələr partiyası kimi yazan Yeni Azərbaycan Partiyası 30 illik yubileyinə yeni qərarlarla qədəm qoyur: "Bu qərarlar partiyanın Zəfərimizin yaratdığı reallıqlar fonunda keçirilən VII qurultayında qəbul olunub. Hər bir rayon və şəhər təşkilatı özündə birləşdirdiyi ərazi partiya təşkilatlarının bütün qüvvə və bacarıqlarını səfərbər etməklə qarşıda dayanan vəzifələrin icrasına öz töhfələrini verməlidir. YAP Xətai rayon təşkilatı bu istiqamətdə fəaliyyətini daha da gücləndirir."

Sonra hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb. Kəmalə Quliyeva Nəsrəddin Tusi küçəsi 128 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Tahir Səmədov sədr müavini, Ziba Rzayeva General Şıxlınski küçəsi 11 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Kübra Əliyeva sədr müavini, Sevda Qocayeva General Mehmandarov küçəsi 9 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Telman Rüstəmov isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.

# Artıq yetər!



**Təxribatların arxasındakı maraq: Münaqişənin bitməməsi kimlərə lazımdır? II Qarabağ müharibəsinin başa çatmasını simvolizə edən 10 noyabr bəyannaməsinin imzalanmasından sonra Prezident İlham Əliyev dəfələrlə çıxışlarında Qarabağ münaqişəsinin həll olunaraq, tarixə qovuşduğunu, artıq yeni quruculuq mərhələsinin başladığını bildirib. Lakin son günlərdə işğaldan azad olunmuş bölgələrdə təxribatların baş verməsi və digər qızışdırıcı addımlar, bəyanatlar regionda sülhün əldə olunmasını istəməyən qüvvələrin vargını göstərən faktorlardır. Xüsusilə də, noyabrın 16-17-də Ermənistan silahlı qüvvələrinin Laçın-Kəlbəcər və Tovuz rayonu istiqamətində Azərbaycan ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutması ölkə gündəminin manşetini tamamilə dəyişib.**

## İlham Əliyev:

## "Yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"

### O zaman belə bir sual yaranır: Əgər müharibə bitibsə, o zaman sərhəddə niyə atışma var, Ermənistan niyə ordumuzun mövqelərini atəşə tutur?

Yerində ortaya çıxan haqlı suallardır... Amma cavab da yerindədir: belə ki, Qarabağ bir il bundan əvvələ qədər işğalda saxlanılan münaqişə zonası idi və 30 il ərzində burada yerləşən terrorçu qruplaşmaları Ermənistan himayə edirdi. Artıq müharibə bitib, amma Ermənistan ordusu siyasi rəhbərliyin sifarişləri ilə terrorçu missiyasını yerinə yetirməkdə davam edəcək. Və 44 günlük müharibə nəticəsində Ermənistan məğlub oldu. Artıq Zəngəzur dəhlizinin açılması qaçılmazdır və günün əsas reallığıdır. Digər tərəfdən, Ermənistanın təslimçi sülhə imza atmaqdan başqa yolu qalmayıb. Həmçinin, sərhəddəki son təxribatlardan sonra Nikol Paşinyanın "biz sülh sazişi imzalamağa hazırıq" deməsi də təsadüfi deyil. O qorxur ki, Ermənistandakı sərhəddəki təxribatları Azərbaycanın növbəti dəfə genişmiqyaslı anti-terror əməliyyatlarının başlamasına səbəb ola bilər. Ona görə də törədilən təxribatların ardınca dərhal ortaya "yumşaq" mövqe qoyur.

Prezidenti İlham Əliyev noyabrın 16-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon söhbət əsnasında Prezident Şarl Mişel Ermənistan-Azərbaycan sərhədində baş vermiş hadisələrlə bağlı narahatlığını ifadə edib.






Sərhəddə cərəyan edən hadisələrlə bağlı Şarl Mişelin müraciətinə cavab olaraq Prezident İlham Əliyev bildirib ki, dəfələrlə Ermənistan tərəfi Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atıb və Ermənistanın son genişmiqyaslı hücumu bu gün baş verib.

Dövlətimizin başçısı Azərbaycan tərəfdən yaralıların olduğunu qeyd edərək, Ermənistanın təxribatlarına adekvat cavab verildiyini vurğulayıb.

### Revanşizmə can atanların aqibəti acı olur

Bəli, bu, real faktordur. Belə ki, hadisələrə diqqət yetirsək, iflasdan qurtulmuş Ermənistanın rəhbərliyi bir müddət sonra revanşist qüvvələrlə bəzi xarici havadarların təzyiqi və təhriki ilə üçtərəfli Bəyannamədə öz üzərinə götürdüyü öhdəliklərdən yayınmağa cəhdlər göstərməyə başladı. Daha doğrusu, Ermənistan hökuməti ikibaşlı oyunlarla vaxt udmaq üçün bir-birinə diametral zidd olan bəyanatlar vermək xəttini tutdu. Ən gərgin məqamlar məhz sərhədlərin dəqiqləşdirilməsi və Zəngəzur dəhlizinin açılması ilə bağlı idi. Lakin İrəvanın bütün destruktiv səylərinə rəğmən, Azərbaycan beynəlxalq hüquq çərçivəsində Zəngəzur ərazisində Ermənistanla sərhədlərini tədricən bərpa edir, zəruri olan sərhəd və gömrük-nəzarət məntəqələrini qururdu. Nəticədə noyabrın 8-də Azərbaycan xalqı Zəfər bayramını qeyd etdiyi vaxtda ermənilər Şuşa ətrafında təxribata əl atdılar, onun səhəri günü ordumuzun Kəlbəcərdəki mövqelərinə yol çəkən mühəndis texnikaları atəşə tutuldu və elə həmin gün də 60 erməni hərbçi Qaragöl ətrafında heç bir hüquqi əsası olmayan post qurmağa cəhd göstərdi. Bütün bu təxribat cəhdlərinin qarşısını alan Azərbaycan, hətta Rusiyanın xahişi ilə Qaragöl ətrafında mühasirəyə aldığı 60 erməni hərbçinin Ermənistana qayıtmasına da imkan verdi.

Həmçinin, Azərbaycan Müdafiə Nazirliyi təxribatlar təkrarlanarsa, daha sərt və təsirli tədbirlərin görüləcəyi barədə noyabrın 10-da qarşı tərəfə ciddi xəbərdalıq etdi. Noyabrın 14 və 15-də Kəlbəcərdəki mövqelərimizi Ermənistan ərazisindən atəşə tutaraq, dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirməyə, beləliklə də, daha əlverişli mövqelərə və hərbi üstünlüyə malik olmağa cəhd göstərdi. Amma Azərbaycan Ordusunun endirdiyi zərbələrlə təxribatçılar qaçmağa məcbur edildi, bütün yüksəkliklər və məntəqələr isə Silahlı Qüvvələrimizin nəzarətində qaldı Ermənistan növbəti dəfə tam iflasa uğradı.

Və son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində baş vermiş hadisələr, həmçinin Qarabağda atəş səslərinin eşidilməsi Ermənistanın qəsdən vəziyyəti gərginləşdirmək cəhdidir.

### Aleksandr Perenciyev: "Ermənistanda revanşistlərin gecələyi yoxdur"

"Ermənistandakı revanşist qüvvələr münasibətləri qızışdırmaqda maraqlıdırlar. Onların təxribatları əksinə, rəsmi Bakı və İrəvanı Rusiyanın vasitəçiliyi ilə öz aralarında sərhəd xətti yaratmağa və Sərhəd Müqaviləsi imzalamağa sövq edəcək. Sonrakı perspektivdə isə sülh müqaviləsi bağlanacaq". Bu sözləri Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin Politologiya və Sosiologiya kafedrasının dosenti, hərbi politoloq Aleksandr Perenciyev deyərək bildirib ki, revanşistlər Cənubi Qafqazın iki qonşu dövləti arasında münasibətlərin tənzimlənməsi üzrə danışıqlar prosesini nə qədər pozmağa çalışacaqlarsa, rəsmi Moskvada bu prosesi öz məntiqi sonluğuna çatdırmaq üçün bir o qədər motivasiya yaranacaq.

Ukraynalı siyasi ekspert Aleksandr Dudçak deyib bildirib ki, genişmiqyaslı münaqişəyə çevrilə biləcək təxribatı təşkil edən hər kəs Ermənistanın və Azərbaycanın maraqlarına zidd hərəkət edən təxribatçıdır: "Hər iki tərəf hərbi əməliyyatların başlamasına görə qarşı tərəfi günahlandırır. Ancaq təxribatı üçüncü tərəfin təşkil etməsi də tamamilə mümkündür".

Aleksandr Dudçak bildirib ki, Paşinyan və komandasının hərəkətlərini "düşünülmüş" adlandırmaq mümkün deyil: "Bir ara Paşinyan bəyan edirdi ki, "Rusiya Ermənistanın təhlükəsizliyinin real təminatçısı sayıla bilməz" və Qərbdən kömək diləyirdi. Buna baxmayaraq, xarici təhlükələri dərk edən Ermənistan KTMT-də qaldı. Azərbaycan Qarabağda hərbi əməliyyatlara başlayandan sonra Qərb heç də qeyri-adi nəsə edərək, Ermənistana yardım göstərmədi. Rusiya isə münaqişəni dayandırmaq üçün əlindən gələni etdi. Ola bilsin ki, indiki təxribat da Rusiyanı Qafqazdakı müharibəyə sürükləmək cəhdidir. Təəssüf ki, regionda sabitliyin pozulmasından və hərbi əməliyyatların yenidən başlamasından faydalanan xarici qüvvələr var. Onlar həm erməni, həm də Azərbaycan xalqının nümayəndələrini terrorçuluğa sövq edə bilərlər. İki xalqı bir-birinə qarşı qoymaqla üçüncü tərəf mənfəət əldə edir və Rusiya da daxil olmaqla, hər kəsə ziyan dəyir".



## Elxan Şahinoğlu: "Paşinyan etiraf edib ki, beynəlxalq aləmdən və beynəlxalq təşkilatlardan dəstək ala bilmirlər"

Göründüyü kimi, min bir oyuna girərək kulonluq edən Paşinyan qotur qoyun kimi qaşınmaya düşüb. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 18-də sərhəddəki son olaylarla bağlı parlamentdə çıxış edərək, deputatların suallarına cavab verib. "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Ermənistan baş nazirinin çətin vəziyyətə düşdüyünü bildirib: "Paşinyanın çıxışından və suallara verdiyi cavablardan onun hansı qərarlar çıxaracağı qənaətinə gəlmək olar. Birincisi, Paşinyan etiraf edib ki, uzun illər Ermənistanla Azərbaycan arasında sərhəd olmayıb, çünki Ermənistan Azərbaycan ərazilərinə nəzarət (işğal) edib. Ona görə də hazırkı toqquşmalar qeydə alınır. Yəni Paşinyan mövcud toqquşmaları labüd hesab edir. İkincisi, Paşinyan etiraf edib ki, beynəlxalq aləmdən və beynəlxalq təşkilatlardan dəstək ala bilmirlər və bu proses o hakimiyyətə gəlmədən öncə formalaşmağa başlayıb.

"Böyük dövlətlər Ermənistanın şikayətlərindən bezirlər" deyən Paşinyan bu məsələdə haqlıdır, hətta İrəvana müxtəlif zamanlarda dəstək verən dövlət və mərkəzlər erməni-lərin daimi ağlaşmalarından beziblər. Paşinyan "böyük dövlətlər və beynəlxalq təşkilatlar Ermənistana və Azərbaycana məsləhət görürlər ki, problemlərinizi öz aranızda həll edin" fikrində də haqlıdır. Bununla, əslində, Paşinyan Qarabağ klanının simasında radikal müxalifətə işarə edib ki, Rusiyaya olan ümidlər özünü doğrultmur, Ermənistan Azərbaycanla qarşıdurmada təklənib. Elə bunun nəticəsidir ki, Ermənistan hakimiyyəti sərhəd məsələsində Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına dəstək məqsədilə yazılı müraciət etməyi lazım bilmir. Görünür, anlayırlar ki, müraciət nəticəsiz qalacaq.

Üçüncüsü, Nikol Paşinyan parlamentdəki çıxışında bildirib ki, Azərbaycanla bütün məsələləri həll etməyə, o cümlədən Bakı ilə sülh sazişini imzalamağa və sərhədi müəyyənləşdirməyə hazırdır. Paşinyan çıxışının bu hissəsində ikibaşlı danışıb. Azərbaycan üçün Ermənistanla imzalanan sülh sazişi o deməkdir ki, rəsmi İrəvan nəhayət ki, Azərbaycanın ərazi bütövlüyünü - Qarabağı Azərbaycan ərazisi kimi tanıyacaq. Paşinyan buna hazır deyil. Onun nəzərdə tutduğu sülh sazişi Qarabağ məsələsini "mötərizəyə alır", yəni bu məsələ ilə Minsk Qrupu məşğul olmalıdır. Belə sülh sazişi isə bizə lazım deyil".

## İtalyan senatoru Urania Papatheudən Ermənistana sərt etiraz - "Artıq yetər..."

İtaliya Senatının "İrəli İtaliya" Partiyasından üzvü, senator Urania Papatheu Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan tərəfinin həyata keçirdiyi sonuncu hərbi təxribatları pisləyən və ölkəmizi dəstəkləyən açıqlamalar verib. Senatorun açıqlamaları İtaliyanın "AgenParl", "Agenzia Nova", "LaPresse", "Askanews", "Dire", "9Colonne" xəbər agentlikləri tərəfindən yayılıb.

Azərbaycan-Ermənistan dövlət sərhədində son günlər ərzində Ermənistan tərəfinin növbəti təxribatlarını dəf edərkən Azərbaycanın 7 hərbçisinin həlak olduğunu, daha 10 nəfərin isə yaralandığını bildirən italyan senator "Artıq yetər demək vaxtıdır, Avropa İttifaqı müdaxilə etməli, irəliyə doğru addım atmalı və hələ də müharibə etmək istəyənləri qətiyyətlə pisləməlidir", - deyə son günlər ərzində baş verən erməni təxribatlarına sərt etirazını bildirib.

"Sanki keçən il noyabrın 10-da müharibə başa çatdıqdan sonra bu günə qədər mina partlayışının qurbanı olan 160-dan çox mülki azərbaycanlı azmış kimi Ermənistan tərəfi öz təxribatlarına davam edir", - o deyib. "Bu dramatik vəziyyət Ermənistan hakimiyyətinin beynəlxalq hüquqla müəyyən edilmiş normaları qəbul etmək istəməməkdə israr etməsi ucbatından daha da pisləşir", - deyə senator fikirlərinə əlavə edib.

## Mövlud Çavuşoğlu: "Can Azərbaycan tək deyil, biz onu tək buraxmarıq"

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bəhreyndə keçirilən mətbuat konfransında söyləyib ki, "Can Azərbaycan tək deyil, tək də olmayacaq. Azərbaycanı tək buraxmarıq. Ermənistanın təxribatları Azərbaycan torpaqlarında terror hücumudur". Nazir deyib: "Regionda sülh və sabitlik üçün birlikdə addımlar atacağıq. Ermənistan bununla razılaşarsa, biz də varıq. Amma Ermənistan belə təxribatlarla yalnız itirəcək".

Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan Ermənistana hərtərəfli sülh sazişi imzalamaq təklifi edib: "Yeni müharibədə qalib gələn və güclü olan tərəf bunu etdi. Ermənistan isə atəşkəsdən dərhal sonra bəzi əsgərlərini Azərbaycan torpaqlarına sızdıraraq əsgərimizə hücum etdi. Bu mövqe yanlışdır".

## Yücel Karauz: "Dünyada Ermənistanın hörməti yoxdur: Əgər müharibə baş verərsə..."

"44 günlük müharibədən sonra dərsini almayan Ermənistan son 2 gündə daha genişmiqyaslı şəkildə təxribatlar törətməyə cəhd etsə də, Şanlı Azərbaycan Ordusunun layiqli cavabı ilə geri oturduldu. Mən düşünmürəm ki, bu baş verənlər səbəbindən yenidən müharibə başlasın".

Bu açıqlamanı Türkiyə generalı Yücel Karauz deyib və bildirib ki, son iki gündə baş verənlər də onların ordusunun necə acınacaqlı vəziyyətdə olduğunu göstərdi: "44 günlük müharibə zamanı Ermənistan ordusunun 60 faizi məhv edilib. Hazırda Ermənistan ordusunun bərpası üçün illər lazımdır. Ona görə Ermənistan KTMT və Rusiyadan yardım istəyib. Ancaq Rusiyanın və KTMT-nin də Ermənistanın bu oyununun fərqində olduğunu düşünürəm. Digər tərəfdən Azərbaycan öz milli təhlükəsizlik maraqlarının qorunması istiqamətində beynəlxalq hüquqa uyğun şəkildə hərbi, siyasi və digər fəaliyyətləri həyata keçirir və bu belə davam etməlidir. Əgər Ermənistan belə təxribat və terror fəaliyyətlərinə davam edərsə, İkinci Qarabağ müharibəsindən daha ağır məğlubiyyətə hazır olmalıdır".

General deyib ki, Prezident İlham Əliyevin dəfələrlə lazımi addımlar atılacağı təqdirdə Ermənistanla sülh müqaviləsini müzakirə etməyə və imzalamağa hazır olduğunu bildirməsinə baxmayaraq, Ermənistan prosesi uzatmağa çalışır. Hələ bu addımları ilə kifayətlənməyib dezinformasiya yayaraq Rusiyanı, KTMT-ni, ATƏT-in Minsk Qrupunun həmsədrlərini köməyə çağırır, Azərbaycan tərəfindən təxribat törədildiyini iddia edir. Ancaq belə üsullar artıq köhnəlib və dünyada Ermənistanı ciddi qəbul etmirlər: "Əgər Ermənistan belə təxribat və terror fəaliyyətlərinə davam edərsə, İkinci Qarabağ müharibəsindən daha ağır məğlubiyyətə hazır olmalıdır. Əks halda "Dəmir Yumruq" yenə başlarını əzəcəkdir".

Bəli, zaman və müddət heç nəyi dəyişməyib. Quldur Paşinyanın quldur siyasəti dəyişməyib. Və Ermənistan təxribatlar törətməklə qəsdən vəziyyəti gərginləşdirir, sülh və əməkdaşlıq tərəfdarı olmadığını göstərir. Və əgər Ermənistan və havadarları Azərbaycana qarşı təxribatları davam etdirərlərsə, başlarında növbəti "Dəmir yumruğu" görə bilərlər.

***RƏFİQƏ HÜSEYNOVA***



# Şəhidlik zirvəsinə ucalan qəhrəmanlar!

## Gəncədə şəhid Elnur Məmmədovun ildönümü mərasimi keçirilib




Şəhidlik ən ali, müqəddəs və şərəfli zirvədir. Torpaq uğrunda canını fəda edən Vətən övladı əslində ölmür, ölümü ilə əbədilik qazanır. Vətən müharibəsində qəhrəmancasına şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyatçı əsgəri Məmmədov Elnur İsrafil oğlu kimi.



Noyabrın 23-də Gəncədə Məmmədov Elnur İsrafil oğlunun anım günü qeyd olunub. SİA-nın verdiyi məlumata görə, anım günündə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının əməkdaşları, şəhidin döyüş yoldaşları, ailə üzvləri və ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanında Elnurun məzarını ziyarət edib, xatirəsini anıb, qəhrəmanın həyatından və keçdiyi şərəfli döyüş yolundan söhbət açıblar.

Vətənə, torpağa, elə-obaya güclü bağlılıq hissi Elnuru hərbçi etdi. 2020-ci il 27 sentyabr səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, bir mənalı olaraq, İkinci Qarabağ müharibəsi başladı. Vətəninin bu dar günlərində ürəyi dözməyən, 2 əkiz qız atası olan Elnur sevdikləri ilə vidalaşdı, çünki Vətənin onun kimi mərd oğullara ehtiyacı olduğunu bilirdi və Vətənin keşiyinə yollandı. Bu şanlı qələbədə onun da payı olmalı idi və oldu da. 2 oktyabr 2020-ci ildə Daşkəsən-Kəlbəcər sərhədində qəhrəmanlıq göstərərək şəhadətə qovuşdu.

Şəhidimiz Elnur Məmmədov göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhidin atası İsrafil Məmmədov və anası Maisə Pirverdiyeva ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq bildiriblər.

## Sabirabadda şəhid mayorun anım mərasimi keçirilib




Vətən müharibəsi zamanı qəhramancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmış, Sabirabad rayon sakini mayor Məmmədov Anar Elşad oğlunun anım günü onun adına inşa olunan abidə bulaq-kompleksinin önündə keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının fəalları, Sabirabad Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayon ictimayəti, şəhidin əsgər yoldaşları, məktəblilər, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak ediblər.




Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə şəhidin döyüş yolundan söhbət açılıb, keçirdiyi qısa və şərəfli ömür yolundan danışılıb.

Tədbirdə çıxış edən şəhidimizin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək buna görə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

## Ucar rayonunda şəhid Coşqun Məmmədovun xatirəsi anılıb



Ucar rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov,YAP Ucar rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Şəhla Abdullayeva, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsi şəhidi Məmmədov Coşqun Elnur oğlunun anım günü ilə əlaqədar Qarabörk kəndində şəhidin məzarını ziyarət ediblər. Şəhidin ailəsinə başsağlığı verilib, ruhuna dualar oxunub.





Qeyd edək ki, Coşqun Məmmədov Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən uğrunda" və "Cəsur döyüşçü"medalları ilə təltif edilib.




## Vətən Bağı ərazidə ağacəkmə aksiyası keçirilib



YAP Şamaxı rayon təşkilatının əməkdaşları Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu il dönümünün çərçivəsində Şəhidlər Xiyabanını ziyarət etmişlər. Ziyarətçilər şəhidlərin abidələri önünə gül dəstələri düzmüş və ruhlarına dualar oxumuşlar. Eyni zamanda, Şəhidlər Xiyabanının ətrafında yerləşən Vətən Bağı adlanan ərazidə ağacəkmə aksiyası keçirmişlər.

*Rəfiqə*

# Armenianreport:

## “Danışan baş Şarmazanov”

### Erməni analitiki Paşinyana qahmar çıxdı, Koçaryan-Sarqsyan cütlüyünü "sürüdü"







44 günlük İkinci Qarabağ müharibəsinin başlanmasında baiskar olaraq Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan göstərilsə də, bütövlükdə alınan məğlubiyyətin əsas günahkarlarının məhz Koçaryan-Sarqsyan cütlüyünün olduğu da sirr deyil. Məhz bu nüansdan çıxış edən Ermənistanın armenianreport informasiya portalının analitik yazarı Tevos Arşakyan bugünlərdə mətbuat konfransı keçirən keçmiş iqtidar rəsmisi, Serj Sarqsyanın yaxın ətrafından hesab edilən, eləcə də Respublika partiyasının sədr müavini olan Eduard Şarmazanovu sözün əsl mənasında ”sürüyüb”, eləcə də Paşinyana dolayı yolla qahmar çıxıb. Revanşçı müxalifətin Nikol Paşinyanı ittihamlar atəşinə tutmalarını hədəfə alan erməni analitikinin yazdığına görə, müxalifət baş nazirə heç bir şans vermir. O, ”hərb etdin, uduzdun, xainsən, hərb etməsəydin və hər şeyi müharibəsiz versəydin, yenə də xainsən”, deyə yazaraq bildirib ki, keçmiş hakimiyyətlərin simasındakı müxalifət artıq bir ildir ki, fəaliyyətdə olan Nikol Paşinyanı ötənilki müharibədəki məğlubiyyətin əsas baiskarı hesab edirlər.

**“Koçaryanın və Sarqsyanın ehtiyatda 20 illəri var idi və bu müddət Ermənistanı çiçəklənən dövlətə çevrilməsi üçün kifayət idi...”**

SİTAT: ”Bu da ”danışan baş” - sarqsyançı Ermənistanın Respublika partiyasının ideoloqu Eduard Şarmazanov noyabrın 22-də jurnalistlərlə söhbəti zamanı hiddətlə Paşinyanın üzərinə yükləndi. ”Bizim partiya fəaliyyətdə olan hakimiyyətlə 3,5 ilə yaxındır ki, mübarizə mərkəzindədir və ona görə də partiyanın gündəmində bir mühüm vəzifə dayanıb - kapitulyantlardan ibarət olan bu rejimi uzaqlaşdırmaq”, deyə o bildirib. Jurnalistin Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ probleminin erməniyönlü həlli yoxdur, yalnız ”sadə həll var” fikrinin hansı məqamların dayanması sualını cavablandıran Şarmazanov deyib ki, əgər erməniyönlü həll yolu yox idisə, onda bu qədər böyük itkilərə getməyin nə mənası var idi? Mübahisə etmirəm, Paşinyanın günahı nəhəngdir - o ordunu təmizlədi, oradan müharibə səriştəsi olan peşəkar zabitləri qovdu, ordunu yenidən silahlandırmağı ya bacarmadı, ya da bacarmağa çalışmadı, aldıqları isə ümumiyyətlə effektsiz və yararsız oldular. Ən əsası, 2020-ci ilin 27 sentyabrına isə Ermənistan anlaşılmaz siyasətlə yaxınlaşdı, Paşinyan ruslarla hərc-mərclik edirdi, Qərblə isə tam olaraq dostlaşmamışdı. Nəticədə olduğu kimi - həm Moskva, həm də kollektiv olaraq Qərb erməni xalqının müharibə meydanlarındakı faciəsini izlədilər. Lakin buradakı günah yalnız Paşinyanındırmı? Əgər Nikol Vovayevişin ifadəsi ilə desək, siyasi sahədə ”qara” o idi, rəqibləri isə birdən-birə ”ağmı” oldular?”, armenianreportun analitiki sual edib və özü də cavablandırıb: ”Əlbəttə ki, yox. İki il yarım elə də böyük zaman deyil ki, korrupsiyasız, yoxsulsuz ”yeni Ermənistan” qurasan, Qarabağla bağlı danışıqlarda isə birtərəfli güzəştlərdən imtina edəsən. Amma onun xələfləri - Koçaryanın və Sarqsyanın ehtiyatda 20 illəri var idi və bu müddət Ermənistanı çiçəklənən dövlətə çevrilməsi üçün kifayət idi...”

**“Məhz ikinci və üçüncü prezidentlərin kriminal-oliqarx hakimiyyətləri vaxtı Ermənistan yoxsul, idarəolunmaz dövlətə çevrilib”**

Erməni analitiki sual edir və özü də cavablandırır - onlar bunu etdilərmi? Birmənalı olaraq yox: ”Əks halda 2018-ci ilin baharında erməni xalqı Koçaryan-Sarqsyan rejiminə nifərt bəsləyərək onu devirməzdi. Xeyirdənxeyir axtarmırlar. Ancaq əvvəlki Ermənistanda xeyir olan heç nə yox idi. Məhz ikinci və üçüncü prezidentlərin kriminal-oliqarx hakimiyyətləri vaxtı Ermənistan yoxsul, idarəolunmaz dövlətə çevrilib. Məhz onlar xalqı, İkəni, ordunu çapıb-talayırdılar. Və Paşinyan onlardan qibtə olunmayacaq irs qazandı və onu müharibəyə qədərki iki il yarımda yoluna qoya bilmədi”.

”İndi Şarmazanov - Sarqsyanın yola getməyən balaca iti Paşinyanı tənqid edir ki, o Qarabağ probleminin erməniyönümlü həlli olmadığı üün böyük itkilərlə nəticələnən müharibəyə getdi. Bəs erməniyönümlü həll Koçaryanın, Sarqsyanın dövrlərində var idimi? Əlbəttə ki, yox idi. Yeganə variant münaqişənin növbəti müddətlərə dondurulması və ”artsaxın” asılı qalan ”statusu”, deyə yazan analitik nəticənin müharibə olacağının məlum olduğunu yazıb və qeyd edib ki, əvvəlaxır bu baş verməliydi.

**“Müxalifət Paşinyana hər hansı variant vermir - döyüşdün və uduzdun - xainsən, döyüşmədin və müharibəsiz verdin - yenə də xainsən”**

Tevos Arşakyan Şarmazanovun Paşinyanı hədəfə alaraq tənqid etməsini tənqid naminə olduğunu bildirib və sual edib - axı baş nazir Azərbaycanın hücumu qarşısında, Rusiyanın və Qərbin susqunluğu qarşısında nə etməliydi? ”Əllərini yuxarı aldırıb türklərdən mərhəmət istəməliydi? ”Artsaxı” müharibəsiz verməliydi? Onda o, daha böyük kapitulyant və xainə çevriləcəkdi və onun, eləcə də ailəsinin həyatlarına görə şəxsən mən bir qara qəpik də verməzdim - xalq onları bağlayıb ilk dirəkdəncə asardı. Bu halda da müxalifət Koçaryanın və Sarqsyanın simasında Paşinyana qarşı hücumlara keçəcəkdilər. Yəni müxalifət Paşinyana hər hansı variant vermir - döyüşdün və uduzdun - xainsən, döyüşmədin və müharibəsiz verdin - yenə də xainsən”, deyə armenianreportin analitiki yazıb. SİTAT: ”Hə, müharibə və məğlubiyyət Paşinyanın hakimiyyətində olub və biz uduzmuşuq. Ancaq sona qədər ədalətli olmaq lazımdır - əgər Paşinyan nəhəng itkilərə görə günahkardırsa və məğlubiyyətə görə məhkəmə və erməni xalqı qarşısında cavab verməyə məhkumdursa, onda Koçaryan, Sarqsyan, Ohanyan, Xaçaturov, həmin o Şarmazanov kimi sabiqlər də cavab verməlidirlər. Bu, kollektiv məsuliyyətdir, Koçaryanın vaxtından başlayaraq Paşinyan hökumətinə qədər ölkəni belə vəziyyətə gətirən bütün yuxarı hərbi-siyasi dairələr cavab verməlidirlər”, erməni analitiki Şarmazanovun ittihamlarını hədəfə alaraq yazıb.

***Rövşən RƏSULOV***

# “Həkimlər öz sahələrinə yalnız biznes strukturu kimi və varlanmaq üçün baxırlar”

“Əslində biz, icbari tibbi sığortanın işə düşməsini gözləyirdik ki, tibb, səhiyyə sahəsində Azərbaycanda olan problemlərin həlli ilə bağlı əhalinin geniş təbəqələrin narazılığı aradan qalxacaq. Təəssüflər olsun ki, icbari tibbi sığorta ilə birlikdə pandemiyanın başlaması, karantin qaydalarının sərtləşdirilməsi və İcbari Tibbi Sığorta Fondundan pulların daha çox koronavirus xəstələrinin sağalmasına yönəldilməsi, üstəlik də İkinci Qarabağ müharibəsi və bu müharibənin fəsadları, şəhidlərin, qazilərimizin çox olması bu sahədə aparılan islahatları bir qədər ləngitdi”. Bu sözlər SİA-ya açıqlamasında yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, bu islahatların daha geniş vüsət alması, daha geniş əhali təbəqəsinin sağlamlığına yönəlməsi üçün bundan sonra istər TƏBİB, istər icbari tibbi sığorta orqanı, istərsə də Səhiyyə Nazirliyi mütləq bu sahəyə xüsusi yeni bir baxış sərgiləməlidir: ”Bilirsiniz ki, Azərbaycanda alternativ təbabət, dövlət və özəl tibb müəssisələri var və bu tibb müəssisələrindən müəyyən mənada əhali vaxtaşırı istifadə edir. Həm də nəinki Azərbaycanda, dünyanın hər yerində insanların sağ-



lamlığı ilə bağlı böyük problemlər yaşanır, təbiət və texnogenik hadisələr baş verir, müharibələr baş verir, ekoloji tarazlığın pozulması, qlobal istiləşmə və kütləvi sürətdə yaşıllıqların məhvi, çayların quruması, yayda temperaturun az qala 50 dərəcəyə çatması əhalinin geniş kütləsinə və insanların sağlamlığına böyük ziyanlar vurur. Bu böyük ziyanların qarşısını almaqda əlbəttə ki, tibb müəssisələri, səhiyyə orqanları, dövlətin səhiyyəyə cavab verən qurumlarının xüsusi təşkilatçılığı tələb olunur. Hələlik, tibbi icbari sığorta oturuşmadığına görə bir çox problemlər özəl tibb şirkətlərinin, tibb müəssisələrinin üzərinə düşür”.

A.Əbilov sözlərinə belə davam edib: ”İstənilən özəl tibbi müəssisə və yaxud hər hansı bir həkim, poliklinika, xəstəxana, tibb müəssisəsi istədiyi qiymətə əhaliyə tibbi xidmətlər təklif edir və göstərir. Bəzən, müayinə adı altında, sonra müalicə də əlavə olunur. Sonra bahalı iynələr, dərmanlar da daxil olmaqla bu qiymətlər həddindən artıq yüksək olur. Bu da əhalinin geniş kütlələrinin cibinə uyğun gəlmir. Əslində biz istər Səhiyyə Nazirliyi, istər əczaçılığa cavab verən qurumlar, istərsə də TƏBİB-in yaranmasından sonra fikirləşdik ki, bu sahəyə xüsusi nəzarət gücləndiriləcək və tibbi xidmətlərin, dərmanların qiymətlərinin tənzimlənməsi və nəzarətedici funksiya güclənəcək. Təəssüflər olsun ki, biz bunu görmürük. Çünki istər dərmanların günü-gündən bahalaşması, istər həkim qəbulunun, xəstəxana qiymətlərinin artması, sanitariya və müalicə kurort müəssisələrində qiymətlərin həddindən artıq baha olması ona gətirib çıxarır ki, artıq insanlar xəstəxana xidmətlərindən imtina edib və sağlamlığına o qədər də pul xərcləmirlər”.

Ekspert əlavə edib ki, Azərbaycanda ailə büdcəsinin hara xərclendiyini müəyyənləşdirsək görəcəyik ki, bunun 60 faizi yeməyə, ərzaq məhsullarına, 20 faizi xidmət sahələrinə, 20-25 faiz kommunal xərclərə gedir: ”Yalnız gəlirin 10 faizi əczaçılıq, tibbi xidmətlər, dərman və digər sağlamlığı ilə bağlı məsələrə yönləndirilir. Həkim qəbullarında olan ödənişlərin çox yüksək səviyyədə olması, bahalı müayinə və müalicə, eyni zamanda hətta mən bildiyim qədər də özəl müəssisələrin təcili yardım maşınlarının belə çox baha qiymətə 500-600 manata xidmət göstərməsi əhalinin orta və kasıb təbəqələrinin cibinə, büdcəsinə uyğun deyil. Ona görə də onlardan istifadə olunmur. Dünyanın hər yerində Hippokrat andına sadiq qalan həkimlərin müxtəlif kasıb təbəqələrə müayinə-müalicə hətta dərmanların paylanmasını görürük. Müxtəlif humanitar mərhəmət aksiyaları baş verir və bu zaman həkimlər imkansız ailələrdən olan uşaqlar, gənclər və qocaları pulsuz-parasız müalicə, müayinə edib hətta, onlara dərmanlar da verirlər. Yalnız Azərbaycandır ki, həkimlər öz sahələrinə yalnız biznes strukturu kimi və varlanmaq üçün baxırlar. Üstəlik həkimlərin aptek, əczaçılıq şirkətləri ilə birləşməsi, rüşvət, hörmət və digər formada öz xeyirlərini götürmək üçün məhz o şirkətlərin lazım gəldi, gəlmədi dərman iynələrindən və peyvəndlərindən, zərdablarından istifadə edərək insanları müalicə, müayinə etməsi üçün bahalı xidmətlər göstərməsi əlbəttə ki, əhalinin qəzəbinə səbəb olur. Bu xüsusilə də kasıb və orta təbəqənin narazılığına səbəb olur. Ona görə də biz təklif edirik ki, dövlətin bu sahədə xüsusi qiymət artımına nəzarət edən və qiymətləri müəyyənləşdirən bir qurumu olmalıdır və o qurum mütləq pullu tibbi xidmətlər göstərən müəssisələrin qiymət siyasətinə xüsusi nəzarət etməlidir. Yaxın gələcəkdə yəqin ki, bu olacaq. Ondan sonra da narazılıqlar ortadan götürüləcək”.

***Ayşən Vəli***

# Antimilli şəbəkənin yeni "virtual səfərbərliyi", yaxud "beşinci kolon" iş başında...

*Yaxud erməni təxribatlarında Azərbaycanın uğurları Xədicə İsmayılı niyə narahat edir*



Özünü "tədqiqatçı jurnalist" adlandıran, satqın, ermənipərəst Xədicə İsmayıl, əslində, sən kimsən? İnsanlarda Xədicə ilə bağlı yaranmış assosiasiyalar müxtəlifdir. Kimə görəsə "qrantyeyən jurnalist" və "hüquq müdafiəçisi", digərlərinə görə xarici kəşfiyyat orqanlarının agenti olan Xədicəni bir çoxları ermənilərin tezisləri əsasında fəaliyyət göstərən təxribatçı hesab edirlər. Və bu qrup düşünür ki, Xədicənin ermənilərlə əməkdaşlığa hazır olması təəccüblü deyil. Çünki normal halda etik baxımdan qəbuledilməz sayılan addımları atmaq Xədicəyə "bir qurtum su içmək" kimi asandır. Daim Azərbaycan dövlətçiliyinə qarşı xüsusi aqressiyası ilə seçilən və bu gün də həmin aqressiyasını davam etdirən hara gəldi, necə gəldi özünü ora soxan, hər şey qrantla ölçən abır, əxlaq, mənəviyyatdan uzaq, yolu əyri olan Xədicə İsmayılın bundan sonra düzələcəyi də mümkünsüzdür. Çünki onun özü də getdiyi yolu kimi əyri olub. Necə deyərlər, "qozbeli qəbir düzəldər". Ancaq Xədicəni heç qəbir də düzəltməz. Bunu onun özü də yaxşı bilir, çünki həmin donqarın içində yalnız və yalnız xəyanətlər var. Özü də kifayət qədər!

### Xədicələrə yeni tapşırıq gəlib - xəyanət davam edir

Azərbaycanın 44 günlük Vətən Müharibəsində qələbə qazanması bir çox xarici, daxili qüvvələri qıcıqlandırıb. Qərəzli dairələr əksər hallarda öz mənkirli planlarına sapı özümüzdən olan baltaları da alət edirlər. Sanki onlar bir mərkəzdən idarə olunur, eyni mərkəzdən komanda alırlar. Onların istifadə etdiyi tezislər, paylaşdığı statuslar eyni məzmunu əhatə edir. Bu günlərdə anti-Azərbaycan dairələrdən təlimat alan Xədicə İsmayıl 16 noyabr təxribatı ilə bağlı ermənipərəst status paylaşıb və belə təsəvvür yaratmağa çalışıb ki, guya Azərbaycan 16 noyabrda Ermənistan ərazisinə hücum edib, BMT prinsiplərini pozub.

Əslində, 16 noyabrda Azərbaycan-Ermənistan dövlət sərhədində nə baş vermişdi? Müdafiə Nazirliynin rəsmi məlumata görə, noyabrın 16-da Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycanın Kəlbəcər və Laçın rayonlarında yerləşən mövqelərinə hücum edib. Azərbaycan Ordusu isə Ermənistanın təxribatına cavab vermək məqsədi ilə hərbi əməliyyata başlayıb və düşməni darmadağın edilib. Ermənistanın noyabrın 16-da Azərbaycan ərazisinə hücum etməsi Birləşmiş Millətlər Təşkilatının (BMT) nizamnaməsinin 51-ci maddəsinin kobud şəkildə pozulmasıdır. Təbii ki, Azərbaycan Ordusu qeyd olunan maddəni əsas tutaraq, öz ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir.

Beynəlxalq aləm bilir ki, Ermənistandan fərqli olaraq, Azərbaycanın heç bir dövlətin ərazisinə iddiası yoxdur. Bu barədə Prezident İlham Əliyev dəfələrlə fikirlər səsləndirib. Çünki Azərbaycanın mövqeyi və tələbləri dəyişməzdir! Rəsmi Bakı bölgəyə sülhün və sabitliyin gəlməsinin tərəfdarıdır.

Lakin ad və soyadından başqa heç nə ilə şəxsiyyət vəsiqəsində "azərbaycanlı" yazılsa da, ruhunu, əqidəsini xarici dairələrə satmış bu satqın noyabrın 16-da Ermənistan-Azərbaycan sərhədində qarşı tərəfin törətdiyi insidentdə Azərbaycanı haqsız çıxarmaqla bağlı sosial şəbəkəsində etdiyi paylaşımlarla Xədicə İsmayıl sahiblərinin təlimatını qeyd-şərtsiz yerinə yetirən zavallıdır.

Xədicə İsmayıl o şəxsdir ki, 30 ilə yaxın işğal altında olan Qarabağla bağlı birmənalı olaraq dövlət və milli maraqlardan çıxış etməyib bu kontekstdə hər hansı yazıya müəlliflik etməyib. Əksinə, imkan düşdükcə maraqlarımızı baltalayıb, bizə düşmən olan dairələrin yanında yer alıb.

Azərbaycanın haqlı mövqedə olduğunu bildiyi halda Ermənistanı qınayan bir cümlə belə yazmayıb, xidmət etdiyi beynəlxalq təşkilatları ədalətli qərarlar çıxarmağa təşfiq etməyib. Xəticə İsmayıl heç vaxt Azərbaycanın faciələrinə ürək yandırmayıb və beynəlxalq təşkilatları Xocalıya ədalətə səsləməyib. O, 30 ilə yaxın müddətdə 1 dəfə də olsun, BMT-ni Qarabağdan Ermənistan Silahlı Qüvvələrinin çıxarılması ilə bağlı qətnamələrini icra etməyə səsləməyib. Amma indi Azərbaycana qarşı BMT nizamnamələrini əsas gətirir və Silahlı Qüvvələrimizi guya Ermənistan ərazisinə müdaxilə etdiyi təsəvvürü yaratmağa çalışır.

Ancaq bu gün sifarişlə çalışan dağıdıcı qüvvələr öz qərəzli planlarını reallaşdıra bilməyib, bundan sonra da çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var və dəfələrlə bu birlik fors-major hallarda özünü göstərib və həmin qüvvələrin də Azərbaycanda suyu bulandırmaq cəhdlərinin perspektivi yoxdur, Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidi ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Çünki onların əsl mahiyyəti alət olmaqdır. Alətə çevrilən "siyasi məhbus" adı ilə çalışan Əli Kərimli, Emin Milli, Leyla Yunus, Xədicə İsmayıl, Natiq Adilov, Orduxan Teymurxan, Elşad Abdullayev, Hüseyn Abdullayev, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rəfael Piriyev və bu kimi zəhərli siyasət rüşeyimlər sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyiş-



məyəcək və necə ki, heç bir şey əldə edə bilmirlər. Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videobloqerliklə, bir də məzmunsuz və proqramsız "müxalifətçiliklə" məşğul olan bu parazit rüşeyimli əxlaqsızlar xarici qüvvələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır.

2020-ci ilin noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasının, Azərbaycanın qələbəsinin rəsmiləşməsinin, Ermənistanın kapitulyasiyasının həmən ardından səsini başına ataraq qələbəmizi kiçiltməyə çalışan, onu "yarımçıq" adlandıran Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl kim viruslar nə düşünürlərsə düşünsünlər, artıq izaha ehtiyac duymuram. Çünki 27 ildən çox müddətdir ki, o sinayətkar, saxtakar və satqınçılıq "şinelini" daşıyır. Nə Xədicə, nə də Xədicənin bağlı olduğu dairələrdən qidalanan digər satqınlar Azərbaycanın planlarını poza bilməyəcək. Çünki Azərbaycanın hədəfi müəyyənləşib və öz məqsədlərinə doğru əmin addımlarla irəliləyir! Və həqiqət hər zaman yalan üzərində qələbə çalıb.

Bütün bu sadalananlardan sonra təkcə onu vurğulamaq qalır ki, bəzi müxalif partiya liderləri, hüquq müdafiəçiləri, "ictimai fəallar" etdiklərindən xəcalət çəkməli, bu təhlükəli təbliğatda yer almamalıdırlar. Cəmiyyət bu şəxslərin əsl obrazını, siyasi kimliyini illər öncədən çox yaxşı tanıyır və yalançı "sülhpərvərliklə", böhtanla bu kimliyi dəyişmək mümkün deyil

Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - mənəviyyatsız! Bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

**Rəfiqə HÜSEYNOVA**

# "Ermənistan təzminat verməli və cəzalanmalıdır"

## HƏRBİ EKSPERT ŞƏRH ETDİ



**Ermənistan heç zaman beynəlxalq hüquqa əməl etməyib, hər zaman beynəlxalq hüququ kobudcasına pozub. Bu sözləri SİA-ya verdiyi açıqlamasında hərbi ekspert Emil Həsənli deyib.**

Hərbi ekspert vurğulayıb ki, beynəlxalq hüquqda ən ağır cınayətlər işğaldır, soyqırımdır, separatizmdir, terrordur ki, Ermənistan bunu dövlət səviyyəsində həyata keçirir.

"Əsrlərə işgəncə vermək, əsirlərlə düzgün davranmamağı Ermənistan ən yüksək səviyyədə həyata keçirir və müharibədən sonra da minalanmış ərazilərin xəritəsini vermir. Bir qism xəritələri verdi ki, onlar da doğru gəlmədi, 25 faizi düzgün oldu. Necə ola bilər ki, bir Ağdam ərazisində 97 min mina basdırılıb. Bu, dövlətin nə qədər insanlıq əleyhinə, bəşəriyyət əleyhinə, mülki insanlara qarşı ən ağır cinayətlər törətdiyinin bariz nümunəsidir.

Təəssüflər olsun ki, yenə bir vətəndaşımız, mülki vətəndaşımız vəzifə borcunu yerinə yetirərkən minaya düşüb. Bu böyük bir siqnaldır və hələ bundan oncə, müharibədən sonra 50-dən artıq Azərbaycan vətəndaşının həyatını itirməsi, xəsarət alması beynəlxalq bir reaksiya vermir. Beynəlxalq aləmdə hüquq, insan haqlarına cavabdeh olan təşkilatlar, münaqişənin həlli ilə bağlı öhdəlik götürmüş təşkilatlar, dövlətlər konkret addım atmırlar. Onlar addım atsaydılar Ermənistan çoxdan bu mina xəritələrini verərdi. Onlar vaxtında addım atsaydılar heç həmin ərazilərin minalanmağına ehtiyac olmazdı, Ermənistan o torpaqları işğal edə bilməzdi. Ya da işğaldan sonra dərhal boşaltmalı idi. Amma indi də təəssüflər olsun ki, yenə heç bir addım atmırlar, yenə də Azərbaycan dövləti öz gücünə bu məsələləri həll edir. Mediada da biz bütün günü bunu görürük ki, Azərbaycan dövləti minaların təmizlənməsi ilə bağlı agentlik yaradıb, Müdafiə Nazirliyi yeni hərbi hissələr yaradıb, Fövqəladə Hallar Nazirliyi bu işlərlə məşğuldur, qardaş Türkiyə dəstək olub, dünyanın bir çox ölkələrindən İsrail, Amerika Birləşmiş Ştatları, Rusiya bu məsələlərdə Azərbaycana dəstək olub. Ancaq, ərazi böyükdür, genişdir, minalanma ilə çox çirklənibdir.

Baxmayaraq ki, Azərbaycan dövləti Beynəlxalq Hava Limanları tikir, şəhərlər salır, hərbi hissələr tikir, amma bununla bərabər yenə də vətəndaşlarımız minaya düşür. Bu onu deməyə əsas verir ki, Ermənistan cəzalanmalıdır. Dünyasını dəyişmiş, həyatını, sağlamlığını itirmiş vətəndaşlara görə Ermənistan təzminat verməlidir. Eyni zamanda əraziləri dağıtdığına görə təzminat verməlidir və aidiyyəti qurumlar da konkret iş görməlidir. Azərbaycan dövləti sürətli olaraq minaları təmizləyir, nə mümkündürsə edir və bundan sonra da edəcək", deyə hərbi ekspert Emin Həsənli bildirib.

***İnam Hacıyev***

ANALİTİK+AKTUAL

# Ermənilər Azərbaycanın ərazi bütövlüyünü tanımaq niyyətində deyillər və olmayacaqlar

Noyabrın 22-də Ermənistanın bir neçə siyasi-ictimai təşkilatlarının səhər saatlarından başlayaraq İrəvanın küçələrində etiraz aksiyaları keçirmələri və həmin aksiyalarda üçtərəfli bəyanatda vurğulanan şərtlərin icra olunmaması ilə bağlı tələblər irəli sürmələri bir daha göstərir ki, düşmən ölkədə revanşçılıq hissləri səngiməyib və bu amil Ermənistanı, bütövlükdə isə erməni xalqını daha ağır situasiyalara doğru sürükləyir. Qərbi Zəngəzur istiqamətindən Naxçıvana qədər dəhlizin açılmaması tələbindən tutmuş Qarabağdakı quldur rejimin fəaliyyətinin davam etdirilməsinə qədər cərəyan edən bütün olaylar, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Ermənistanın ictimai-siyasi rəyi ümumiyyətlə, ölkələrinin Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmirlər və niyyətləri də bu istiqamətə doğru köklənib. Eləcə də maraqlıdır ki, bu gün yalnız erməni müxalifətçiləri deyil, həm də hökuməti hər vəchlə üçtərəfli bəyanatın icrasına ciddi maneələr törədirlər - müxalifətçilər etiraz aksiyaları keçirməklə, hökumət isə zaman qazanmaq və çıxış yolları tapmaq vasitəsi ilə. Hansı ki, hər iki cinah dalana söykənib və əgər belə vəziyyət davam edərsə, bunun nəticəsi həqiqətən də, onlar üçün çox acınacaqlı ola bilər.









### Vazgen Petrosyan: "Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya aparılacaqsa, bu zaman ermənilər ömürlük Qarabağ və Naxçıvan barədə unutmalıdırlar"

**Bu gün yalnız erməni müxalifətçiləri deyil, həm də hökuməti hər vəchlə üçtərəfli bəyanatın icrasına ciddi maneələr törədirlər**

Bu arada, etiraz aksiyaları zamanı İrəvanın mərkəzi "Respublika" meydanında çıxış edən erməni politoloqu, "Ermənistanın xalq hərəkatı" adlı təşkilatının lideri elan edilən Vazgen Petrosyanın fikirlərinə də diqqət yetirmək olar. O, iddia edib ki, son illərdə ermənini "bizdən" "mənə" çeviriblər və bu vasitə ilə ona qalib gəliblər.

Revanşçı çağırışlar edən erməni politoloqu bildirib ki, Ermənistan gərək öz baxışlarını yenidən nəzərdən keçirsin. "Əgər biz istəyiriksə ki, səsimiz dünyada yenidən eşidilsin, əgər biz istəyiriksə dünyada öz yerimiz və rolumuz olsun, onda yenidən "biz" olmalıyıq", deyə pafosla danışan Vazgen Petrosyan sözügedən xüsusda deyib ki, Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya aparılacaqsa, bu zaman ermənilər ömürlük Qarabağ və Naxçıvan barədə unutmalıdırlar.

Daha bir erməni siyasətçisi "Çiçəklənən Ermənistan" partiyasından olan keçmiş deputat Arman Abovyan verlişlərin birinə çıxaraq həyasızcasına bəyan edib ki, ermənilərə zaman lazımdır və onlar Bakıya, Gəncəyə, eləcə də Azərbaycanın digər bölgələrinə qədər irəliləyərək "erməni torpaqlarına" yiyələnəcəklər. Bu məxluq Bakını "bakurakert", Gəncəni isə "qandzak" adlandırıb və bildirib ki, Azərbaycanın dərinliklərinə qədər hər bir azərbaycanlı müharibənin onların evlərinə gələcəyini bilməlidirlər və bunun üçün ermənilər hərəkətə keçməlidirlər.

Göründüyü kimi, bu gün erməni ictimai-siyasi rəyində əsas çoxluq revanşçılıq, işğalçılıq meyilləri və qonşularının torpaqlarına göz dikmək xəstəliyi qalmaqda davam edir və bu xəstəliyin sağaldılması üçün mütləq alternativ variantların həyata keçirilməsi zərurətə çevrilir. Baxın, bütün dünya, beynəlxalq strukturlar və hüquq mərkəzləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, suveren hüquqlarını tanıyır, amma qədim Azərbaycan torpaqları üzərində qurulmuş saxta "Ermənistan", hətta başı 44 günlük müharibədə əzilsə belə, yenə də həmin xəstəliyindən xilas ola bilmir. Və bu gün Zəngəzurda, Qarabağda erməni əsgərləri ölürsə, onların qanları heç də Azərbaycanın üzərində deyil, bu məsuliyyət, günah məhz bənzər çağırışlar edən daşnak xislətli, xəstə təxəyyüllü ermənilərin üzərindədir!

### Bu xəstə məxluqlar öz kirli xislətlərinin və riyakar məramlarının başqa millətlərdə və xalqlarda da olduğunu sanırlar

Gəlin həmin xəstə təxəyyüllü erməninin digər ifadəsinə diqqət yetirək: "Əgər biz Azərbaycanın ərazi bütövlüyünü tanısaq türklərin (yəni azərbaycanlıların-R.R.) tələbləri onları Naxçıvanla bağlayacaq hansısa növbəti yolun verilməsi ilə bağlı olacaq. Bundan sonra pantürkist proqramı realizə ediləcək və Ermənistanın, erməni xalqının mövcudluğu yalnız zamanın sualı olaraq qalacaq".



Bir daha göründüyü kimi, bu xəstə məxluqlar öz kirli xislətlərinin və riyakar məramlarının başqa millətlərdə və xalqlarda da olduğunu sanırlar, halbuki Azərbaycan dövləti heç vaxt başqalarının torpaqlarına göz dikməyib, işğalçı siyasət yürütməyib, təcavüzkarlıq meyillərindən uzaq olub, əksinə, Ermənistan və onun daşnak xislətli dövlət siyasəti, eləcə də xalqının böyük kəsimi həmin maraqlarla yaşayıb və fakt olaraq yaşamaqdadır. Özü də yalnız Azərbaycana qarşı deyil, Gürcüstana, İrana, Türkiyəyə, hətta Rusiyadakı vilayətlərə qədər torpaq iddialarında olan bu rüsvayçı, riyakar məxluqlar bütövlükdə regionun inkişafı və tərəqqisinə ciddi maneələr törədirlər.

***Rövşən RƏSULOV***

***P.S. Və belə maneələrin aradan qaldırılması, birdəfəlik məhv edilməsi üçün isə bircə yol qalır...***

TƏRS BAXIŞ

# REAL funksioneri

## AXCP sədrinin bostanına daş atdı

*Natiq Cəfərli Əli Kərimlinin adını çəkməsə də, fəaliyyətini sərt şəkildə hədəfə aldı*

Zaman-zaman AXCP sədri Əli Kərimlinin uğursuz fəaliyyəti düşərgənin müxtəlif cinahlarında yer alan digər müxalifət partiyaları və funksionerləri tərəfindən hədəfə alınır, cəbhəçi sədrin özündən başqa hər kəsi ”satqın”, ”xəyanətkar” adlandırmasına qarşı alternativ fikirlərini ortaya qoyurlar. Lakin etiraf edək ki, Əli Kərimli AXCP-nin sədarət kürsüsünü işğal etməsi faktından üzü bu yana onun tilovuna, tələsinə düşən bir çox insanlar sonradan nə qədər böyük səhvə yol verdiklərini anlayır, həyatlarının bir qisminin hədər getdiyini gec də olsa başa düşürlər.

Ancaq maraqlıdır ki, uğursuz, ucuz və şou xarakterli fəaliyyətini bu gün də davam etdirən Əli Kərimli ikiəlli şəkildə partiyanın sədr kürsüsündən yapışıb və ”demokratiya uğrunda mübarizə aparması” tipli süni görüntülərini sosial şəbəkələr vasitəsi ilə yaymaqdadır.



**”Əks-arqument deyən kimi cırnayır, söyüşə, təhqirə keçir, anlamır ki, demokratiyanın qızıl qanunlarından biri fikir müxtəlifliyidir”**

AXCP sədri bu dəfə REAL partiyasının siyasi komitəsinin üzvü Natiq Cəfərlinin sərt hədəfinə tuş gəlib. Daha dəqiq desək, Natiq Cəfərli Əli Kərimlinin adını çəkməsə də, söhbətin ondan getdiyini anlamaq heç də çətinlik yaratmır. SİA xəbər verir ki, cəbhəçi sədrin ”portreti” üzərində gediş edən REAL-çı funksioner bildirib ki, ölkədə demokratiya haqqında danışanların əksəriyyəti bu qavramı ya bilmir, ya anlamır, ya da savadları çatmır və insan özündən başqa hamının haqsız olduğunu düşünən andan demokrat ola bilməz, bu, mümkün deyil.

”Eyni şeyi hüququn üstünlüyü haqqında da demək olar-baxırsan ki, adam demokratiya, hüquq haqqında pafosla danışır, amma əks-arqument deyən kimi cırnayır, söyüşə, təhqirə keçir, anlamır ki, demokratiyanın qızıl qanunlarından biri fikir müxtəlifliyidir. Ya da, hüquqdan, ədalətdən danışır, amma həyasızcasına çıxıb ictimai şəkildə yazır ki, ”flankəslər satqındı, flankəs satılıb” - hüququn üstünlüyünə inanan adam heç vaxt belə ittihamlarla çıxış etməz...”, deyə Cəfərli Kərimliyə eyham vurub.

**”Bunlar psixoloji travmadan irəli gəlir, ona görə də belə bir axmaq komplekslə yaşamağa məhkumdular”**

Onun sözlərinə görə, əgər kimlərsə digərlərini ”satqın” adlandırırsa, həmin adamları məhkəməyə vermək olar və belələri psixoloji travmalarla həm də axmaq komplekslə yaşayırlar: ”...Verərsən məhkəməyə, diz çökdürərsən, üzr istədib təzminat alarsan, o da qələt edər bir də kiməsə sənədsiz-sübutsuz ”satqın” deyər. Mən anlayıram ki, ”satqın” möhürü ilə gəzənlərin bir çoxunun əlində başqa heç nə yoxdur, başa düşürəm ki, bunlar psixoloji travmadan irəli gəlir, çünki bütün həyatları boyu yan-yörələri, ən inandığı adamlar, ən çox güvəndikləri ”satqın” çıxıb, düşərgə dəyişdiriblər, ona görə də belə bir axmaq komplekslə yaşamağa məhkumdular”.

**“İctimai-siyasi sektora çayxanalardan gələnlərin demokratiya, hüquq, ədalət, arqument kimi qavramlarla işləri yoxdur, pafos qusmaqla məşğuldular”**

REAL partiyasının funksioneri çayxanalardan, küçələrdən gələrək müxalifətçilik edənlərin ölkənin siyasi gündəminə heç bir səmərələrinin olmadığını qeyd edib və bu kimilərinin indi ”demokratiya”, ”hüquq”, ”ədalət” kimi fikirlər irəli sürmələri ciddi qəbul oluna bilməz, hətta onlar cəmiyyətə pafos qusurlar. ”İctimai-siyasi sektora çayxanalardan gələnlərin demokratiya, hüquq, ədalət, arqument kimi qavramlarla işləri yoxdur, pafos qusmaqla məşğuldular”, deyən Natiq Cəfərli belələrinin ictimai-siyasi səhnədə karyeralarının məhv olacağını, gözdən-könüldən iraq düşərək tarixin arxivinə gömüləcəklərini bildirib.

**“Hələ biri var, haqqında ”mübariz insandır”, deyirlər, amma onu deyənlər belə qeyd edirlər ki, adamın siyasətin ”S” hərfindən xəbəri yoxdur”**

O, bir daha Əli Kərimlini nəzərində tutaraq necə deyərlər, AXCP sədrini ”vəsf” edib: ”Hələ biri var, haqqında, ”mübariz insandır”, deyirlər, amma onu deyənlər belə qeyd edirlər ki, adamın siyasətin ”S” hərfindən xəbəri yoxdur. Sadəcə, bunu üzünə demirlər, efirlər verirlər, o da elə bilir böyük adamdı, mütəfəkkirdir, fikir insanıdır, özündən bədgüman olur, özü haqqında səhv nəticələr çıxarır, sonra da demokratiya və hüquq anlayışından bixəbərcəsinə başqalarına çamur atır. Yaxşı, adamı niyə bədbəxt edirsiniz ki?! Görmürsünüz heç bir sənəti, təhsili, dünya görüşü yoxdur?!.. Niyə bədbəxt edirsiniz ki, insanı?! Bəlkə elə üzünə deyək ki, ay adam, siyasət elmdir, arqumentdir, sənlik deyil, bu işə qazanc mənbəyi kimi baxma, çünki demokratik ölkə quranda bu işdən sənə ”çörək” çıxmayacaq?!”.

REAL-çı funksionerin bi eyhamları hələ ki, cavabsız qalıb və çox yəqin ki, artıq AXCP sədri sosial şəbəkələrdəki bəlli trol qruplarını onun üzünə qısqırtmaq üçün hazırlıqlara başlayıb. Görünür, bu həftə müxalifət düşərgəsi üçün çox qaynar keçəcək...

***Rövşən RƏSULOV***

# Tibbi bankalar faydalıdır, yoxsa...



**Tibbi bankalardan ilk dəfə çinlilər istifadə etməyə başlayıb. Onların fikrincə, həmin prosedur orqanizmin xarici mühitin zərərli amillərinə qarşı müqavimətini artırır, qan dövranını aktivləşdirməklə həyat enerjisini yüksəldir. Banka bədənə qoyulanda dərinin bir hissəsi onun içərisinə sorulur, nəticədə bədənin həmin hissəsində qanın dövranı yaxşılaşır, hüceyrələr yenilənir, mübadilə prosesləri sürətlənir.**

Postsovet ölkələrində banka qoyulması prosedurundan indi də istifadə edilir. Bizim ölkəmizdə də banka qoyulması çox geniş yayılıb. Lakin bir sıra ölkələrdə, o cümlədən ABŞ-ın səhiyyə sistemində tibbi bankalardan istifadə qadağan olunub. Təəssüf ki, həmin müalicə üsulu barədə həkimlərin ortaq mövqeyi yoxdur və onların fikirləri haçalanır.

Bir sıra həkimlərin fikrincə, tibbi bankalar qoyulması ilə təkcə soyuqdəymə deyil, həmçinin kəskin mərhələ keçəndən və temperatur azalandan sonra bronxit və pnevmoniyalar da müalicə olunur, onun başağrısı, qarın, bel, kürək və oynaq ağrıları zamanı da faydalı olduğu hesab edilir. Müasir Çin təbabəti hələ də başgicəllənməsi, öskürək, bronxial astma, hətta ishalın müalicəsində də banka qoyulmasının faydasını istisna etmir.

Müxtəlif ölçü və quruluşa malik bankalardan qoyulması ilə aparılan vakuum-müalicələr indinin özündə də aktualdır. Tibbi bankalarla müalicənin tərəfdarlarının qənaətinə görə, osteoxondroz, əzələ spazmı, radikulit, lümbaqo, bronxit, xroniki pnevmoniya, bronxial astma, mədə və onikibarmaq bağırsaq xəstəliklərində onun faydalı təsiri var.

Banka prosedurunun ən mənfi cəhətlərindən biri onların yerində qalan ləkələrdir. Həmin ləkələr adi qançırı xatırlatsa da, gec sorulur. Vakuum-qradient müalicəsi ilə məşğul olan həkimlərin fikrincə, bankadan sonra qalan ləkə hematoma deyil, qanın damar divarından toxumalara sızmasıdır. Onun tərkibində təkcə qan elementləri deyil, həmçinin plazma zülalları, bioloji aktiv maddələr- histamin, prostoqlandin, neyromediator, hormon və s. maddələr olur. Onlar orqanizmin müdafiə qabiliyyətinin bərpasına şərait yaradır. Ləkənin rənginin tündlük dərəcəsi xəstəliyin ağırlılığı və orqanizmin toksinlərlə zəhərlənmə dərəcəsinə adekvat olaraq artır.

Xəstəlik yüngül formada olanda bankalama üsulu ilə ev şəraitində də müalicə aparılır. Həmin vasitə ilə boyun və bel ağrılarını azaltmaq, arterial təzyiq, yuxusuzluq, başağrısı və yorulma zamanı xəstənin vəziyyətini yaxşılaşdırmaq mümkündür.

Tibbi bankanı qoymaq üçün nazik çubuğa pambıq dolanır, spirtə batırılaraq yandırır, onu tibbi bankanın içinə salıb çıxarandan sonra dərhal bədənə, əsasən kürək nahiyəsinə qoyulur. Dəri bankaya sorulanda müalicəvi təsiri yüksək olur. Əvvəlcə 1 dəqiqə saxlanılır, növbəti dəfə zaman kəsiyi 15 dəqiqəyə qədər uzadılır. Prosedur zamanı xəstədə xoş hissiyyat olmayanda bankalar dərhal çıxarılmalıdır. Proseduru təkrar etmək lazım gələndə ən azı bir, yaxşı olar ki, iki-üç gün fasilə verilsin.

Mütəxəssislərin bir qismi təbii banka üsulunu qəbul etmir. Bir sıra Avropa ölkələrində isə bankalar ümumiyyətlə tibbi arsenaldan çıxarılıb. Bəzi həkimlərin fikrincə, banka nəinki infeksiyanın qarşısını almır, əksinə, onun orqanizmdə yayılmasına və bronxlardan ağ ciyər toxumasına keçməsinə səbəb olur.

Bəzi xəstəliklərdə isə banka qoyulması yolverilməzdir. Xüsusən endokardit, miokardit, ürək qüsurları, ağır hipertoniya, miokard infarktı və stenokardiya zamanı xəstəyə banka qoymaq olmaz. Bundan başqa kəskin infeksiyalar, skleroz, damar trombozu, orqanizmin kəskin zəifləməsi və dəri xəstəlikləri zamanı da tibbi bankaların qoyulması əks göstərişdir.

## “Müxalifət qeyri-real mübarizə aparır”

“Azərbaycan 44 günlük Vətən müharibəsində təkcə öz ərazisini, suverenliyini bərpa etmədi, eyni zamanda, beynəlxalq erməni şəbəkəsini ciddi şəkildə məğlubiyyətə uğratmış oldu. Həmin andan başlayaraq erməni şəbəkəsinin Azərbaycana və onun Zəfər Gününə qarşı çox ciddi şəkildə əks hücumları başlayıb. Bunlar diplomatiya və informasiya sahəsində həyata keçirilir və bu sahədə Ermənistanı bir çox dünyanın bədxah güc mərkəzləri də dəstəkləyirlər”. Bunu ”Səs” qəzetinə açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli bildirib.




Onun sözlərinə görə, hazırda Azərbaycanda, noyabr ayında Zəfər günləri keçirilən ərəfədə Ermənistan şəbəkəsi baxımından qisasçılıq zəminində Azərbaycana qarşı həm cəbhə bölgəsində təxribatlar oldu, həm də informasiya cəbhəsində çox ciddi şəkildə hücumları müşahidə etdik: ”Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzən ermənilərin bu cür çıxışları ilə Azərbaycanda radikal müxalifətin çıxışları arasında sinxronluq müşahidə olunur. Yəni, Ermənistan müxalifəti əgər bu gün Ermənistan hökumətinə qarşı çıxıb, onu cəbhə bölgəsində Azərbaycana qarşı münasibətlərdə aqressiv olmağa səsləyirlərsə, Azərbaycan müxalifəti isə əksinə davranır, yəni Azərbaycan hökumətini Azərbaycan torpaqlarını müdafiə etdiyi üçün qınayır. Bu baxımdan, bəzən Azərbaycanda müxalifət təmsilçilərinin çıxışları erməni şəbəkəsinin çıxışları ilə üst-üstə düşür və sinxronluq təşkil etmiş olur. Son vaxtlar onların çıxışlarında o qədər çılpaq ifadələr işlədilir ki, hətta Azərbaycanı sərhəd bölgəsində uğurlu əməliyyat apardığına görə də qınayan çıxışlar edirlər. Təbii ki, bu, yolverilməzdir və Azərbaycan müxalifətinin qeyri-real bir mübarizə aparmasının göstəricilərindən biridir”.

***Gülyana***

# Gigiyenik vasitələr: faydalıdır, yoxsa zərərli?

...baycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

***Cəbiş müəllimin bişirdiyi sabunla müasir sabunun fərqi nədir?***

"-Haradan tapmısan bunu? Ay allah, iyinə bir bax!

***-Özüm düzəltmişəm.***

-Axı necə düzəltdin?

***-Sabunu düzəltməyə nə var ki? Boş şeydi. Bir az kaustik soda, bir az əlif, bir az da ondan-bundan, vəssalam, sabun hazırdır".***

Bu, dağıdıcı müharibə illərində sabuna həsrət qalan yüzlərlə ailədən birinin- Cəbiş müəllimin və həyat yoldaşının dialoqudur. İndi sabun boldur, növbənöv, cürbəcür, rəngbərəng. Amma Cəbiş müəllimin bişirdiyi sabunlar daha yoxdur. Təbii sabunlar...

### Tərkibində nələr olmalıdır?

Sabunun istehsalına XII əsrdə başlanıb. İngiltərədə 1622-ci ildə sabun istehsalı ilə məşğul olmaq istəyən sahibkar krala müasir pulla təxminən ildə 100 min dollar vergi ödəməli idi. Sabun zadəganlar üçün nəzərdə tutulmuşdu, yoxsullar ondan istifadə edə bilməzdi.

Sabunun keyfiyyəti istehsalında istifadə edilən yağlardan, istehsal üsulunun peşəkarlığından irəli gəlir. İstehsalçı istənilən sabunu gözəl qablaşdırıb "ən təbii sabun" adı ilə reklam edə bilər, amma onun dəri ilə təması böyük fəsadlara da yol aça bilər. Normal qaydada hazırlanan sabun yağ turşusunun duzudur. Onu yağ turşularının kaustik soda və potaş kimi qələvilərinin suda qaynadılması nəticəsində əldə edirlər. Eynilə Cəbiş müəllimin hazırladığı sabunlar kimi. Amma indi dükan-bazarda istehlakçıya təklif edilən sabunların keyfiyyət göstəriciləri təbiiliyi ilə yox, daha çox bakteriya (faydalıları da) öldürə bilməsi bacarığı ilə, ətrinin qalıcılığı ilə ölçülür. Sabunların tərkibində istifadə edilən saysız-hesabsız kimyəvi maddələrin müxtəlifliyi dəriyə verdiyi xeyir və zərərlər qədər çoxçeşidlidir.



Sabunun hazırlanması üçün ana maddə NaOH, yəni natrium hidroksid, başqa adla kaustik sodadır. Müasir sabunların tərkibində NaOH-dan əlavə ən ucuz zeytunyağı, su, rəngləndirici və qoxu verən maddələr var. Bundan əlavə lazım olan nəmliyi yaratmaq üçün yetərli yağ əlavə edilmədiyi üçün sabun quruya bilər, istehsalçı bunun üçün kimyəvi nəmləndiricidən istifadə edir. Yağı sabunlaşdırmaq üçün lazım olan qələvi nisbəti fərqlidir. Hər yağın fərqli nisbəti doğru hesablanmasa, ya sabunlaşma tam olaraq reallaşmaz, ya da sabunda qalan sabunlaşmamış sərbəst qələvilər dərinin xəstəliyə yoluxmasına gətirib çıxarar. Keçmişdə qələvi problemi olduğundan bəzi ağacların külünə su qatılar, təbii qələvi əldə edilərdi.

### Sabun dünyada narazılıq yaradır

Dövrümüzdə sabunun bir çox növü var. Bunlardan ən çox yayılanı fabrik-zavod istehsallarıdır. Doğrudur, təbii, ev üsulu olduğu iddia edilən sabunlara da rast gəlirik, amma evdə sabun hazırlamaq təhlükəlidir. Çünki onun tərkibində qatılan elementlər ölçü ilə olmalıdır və ev şəraitində bu ölçü doğru hesablanamaya bilər.

Fərqli marka, dizayn, rəng, qoxu və qablaşdırma növləri ilə bazara çıxarılan fabrik-zavod sabunları, ehtiva etdikləri kimyəvi maddələr, süni rəngləndiricilər və ətirləndiricilər səbəbi ilə çox zaman orqanizm üçün təhlükə mənbəyi olur. İstehsalçının iddia etdiyi təbii elementlər isə sabunun tərkibində olmur. Üzərində meyvə və ədviyyat bitkilərinin şəkilləri göstərilsə də, tərkibində onlardan heç bir əsər əlamət yoxdur. Müasir sabunların əksəriyyəti yalnız təmizlik məqsədlidir, iddia edildiyi kimi dəriyə heç bir faydaları yoxdur. Üstəlik, ekspertlər hesab edir ki, sabunun tərkibindəki kimyəvi qatqılar dəri və məsamələr vasitəsi ilə bədənə daxil olur və damara qədər yol tapa bilir. Üstəlik, onsuz da çox çətinliklə əldə edilən D vitamini də azaldır.






Hazırda dünyanın bir çox ölkəsində sabunlara qarşı ciddi narazılıqlar yaranıb, istehlakçılar sabundan gördükləri zərərləri məhkəmə salonlarına qədər çıxarırlar. İstehsalçı firmanın təbii olaraq tanıtdığı markalar bir çox istehlakçıda ciddi problemlər yaratdıqdan sonra bəzi ölkələr sabun sektorunda ciddi yoxlamalar aparmağa başlayıb.

### Kimyəvi "bitki" sabunları

Məlum olur ki, daha çox kiçik ölçülü yerli emalatxanalarda 5-15 tonluq qazanlarda qaynadılaraq əldə edilən, "təbii sabun", "dəfnə sabunu", "zeytunyağı sabunu" və s. kimi adlar altında satışa çıxarılan sabunlarda isə qeyd edilən elementlərdən demək olar ki, heç biri yoxdur. Dəfnə sabunu dəfnəyarpağı olmadan, zeytunyağı sabunu zeytun olmadan istehsalı edilir. Ucuz istehsal şərtlərinə uydurmaq üçün tullantı yağlardan və kimyəvi qarışıqlardan istifadə edilən sabunlar, məhz naməlum tərkibinə görə dəridə ciddi problemlər yaradır. Qaynadılaraq əldə edilən, əslində, tərkibində yağ olmayan bu sabunların nisbi olaraq daha keyfiyyətlisi, yağ istifadə edilərək istehsal edilən növlərində belə, yağların bütün müsbət xüsusiyyətləri itir. Bunun səbəbi elementlərin yüksək temperaturda qaynadılmasıdır.

Qaynama nəticəsində qabın dibinə çökən qliserin ilə qarışıq bir maye ya qalıq olaraq atılır, ya da qliserin təhlil edilərək kosmetik firmalarına satılır. Sabunun sərtliyini təmin etmək üçün ya kaustik soda nisbəti çox götürülür və ya heyvan mənşəli yağlar əlavə edilir. Kaustik soda çox olduqda isə qələvi nisbəti fərqi dərini qıcıqlandırır, hevan mənşəli yağlar isə dəri məsamələrini örtür və dərinin nəfəs almasını əngəlləyir.

İndi dükan və bazarda "qliserinli sabun" adı altında satılan şəffaf sabunlarla qadınlara daha nəm dəri vəd edən istehsalçılar əslində sabunun tərkibində spirt, şəkər, süni rəngləndirici və qoxu verici maddələr əlavə etməklə istehlakçını zərbə altına qoyur. Üstəlik, istehsalçı sabunun qliserinli olduğunu iddia edirsə deməli əslində istehlakçını aldadır, çünki sabun hazırlandıqda onun tərkibində həqiqətən qliserin əlavə edilsə belə qaynama zamanı qliserin məhv olur.

### Sabunda yeni dəb - Qara sabun

Hazırda dünyanın ən yaxşı sabunlarından biri olaraq tanıdılan qara sabunun digər bir adı da "ghassoul"dur. Təbiiliyi və saflığı barədə istehsalçı firmanın israrla təminat verməsi bu sabunu xüsusilə avropalı qadınların sevimli sabununa çevirib. Qara sabun yağ və böyük mineral kütləsindən əldə edilən palçıqla hazırlanır və istehsalçının iddiasına görə tərkibində heç bir kimyəvi maddə yoxdur. Qara sabun toz halında olan torpağın duruldularaq qurudulması və palçıq parçalarının birləşərək əmələ gəlməsi nəticəsində əldə edilir.

İstehsalçı firmanın iddiasına görə qara sabunun həm dəri, həm də saç üçün bir çox faydası var. O dərini dərindən təmizləyir, dəridəki ölü hüceyrələri təmizləyir və sağlam hüceyrələrin yaranmasını təmin edir, dəridəki sızanaq və gənələrin təmizlənməsinə kömək edir, dəriyə yumşaqlıq verir, toksinlərin atılmasını təmin edir, saçda təbii nəm tarazlığını qoruyur, saçı hər növ yağ və çirkdən təmizləyir, baş dərisindəki yağ ifrazatını tarazlayır, baş dərisinin ən üst layında olan hüceyrələrin bir-birinə yapışmasını təmin edərək saç tökülməsinin və qırılmalarının qarşısını alır.

### Otellərin saç şampunu əvəzinə qab şampunu fırıldağı

Azərbaycanda tez-tez mətbuata "saç şampununun içindən qab şampunu çıxdı", "maye sabunun tərkibində təhlükəli maddələr tapıldı" kimi xəbərlər çıxır. Ölkəmiz azad bazar üçün münbit şərait yaradıb, istənilən formada və markada məhsul bazarımıza yol tapa bilir. Hazırda Azərbaycanın bazarında brend malların saxta variantları, saxta şampunlar, yuyucu maddələr var. Bir qədər əvvəl aidiyyatı orqanlar belə halları aşkar etmişdi, məlum olmuşdu ki, Sumqayıtda paltaryuyan tozdan hazırlanmış maye Azərbaycanın beş ulduzlu otellərində saç və bədən şampun kimi istifadəyə verilir.

Ümumiyyətlə, hazırda satışda olan saç şampunlarının çoxu da nəinki saçları qırumur, əksinə, tökülməsinə kömək edir. Bu səbəbdən dünyada genişlənməkdə olan Natural gigiyena hərəkatı üzvləri çoxdan şampundan və digər kimyəvi gigiyena vasitələrindən imtina ediblər və alternativ tərkibli vasitələrdən istifadə edirlər.

### Antibakterial sabun iflicə səbəb ola bilər

Amerikanın "Proceedings of the National Academy of Sciences" tibb jurnalının apardığı bir araşdırma ilə antibakterial sabunlarda olan triklosan maddəsinin əzələ funksiyalarını və skelet quruluşunu dəyişdiyi məlum olub. Araşdırmada, mikroba yoluxmamaq üçün xüsusilə antibakterial sabunlara, diş pastalarına, dezodorantlara, təraş losyonlarına və digər kosmetik məhsullara qatılan triklosanı balıqlar və siçanlar üzərində sınaqdan keçirilib.

Triklosana məruz qoyulan siçanlarda ürək funksiyalarında 20 dəqiqə ərzində 25 fazi və qol qüvvətində 1 saat müddətində 18 faiz azalma olduğu təyin edilib. Belə ki, balıqlar 7 gün tərkibində triklosan olan suda saxlanılıb. Məlum olub ki, üzmə fəaliyyətləri xeyli azalıb, xüsusilə üzgəclərinin fəaliyyəti zəifləyib. Araşdırma alimləri bildirir ki, triklosan antibakterial sabun işlədən hər kəsin evində var və əksəriyyətimiz körpə uşaqları belə onun təsirinə məruz qoyuruq.

Qeyd edək ki, triklosanın zərərli təsirləri ilk dəfə 2000-ci ildə aşkarlansa da, istifadəsinə qadağa qoyulmayıb. Bu maddə xlorla birləşdikdə kloroform kimi kanserogen maddələrin meydana gəlməsinə səbəb olur. Üstəlik bu maddə bakteriyaların antibiotiklərə qarşı müqavimət qazanmasına səbəb olur. Hormonlara belə müdaxilə gücündə olan triklosan sabunlar və şampunların istifadəsindən sonra təbiətə axıdılan su vasitəsi ilə təbiətdə də uzun müddət qala bilir. Daha çox uşaqların oyundan sonra mikroba bulaşmış əllərini yumaq üçün anaların antibakterial sabun və mayelərə üstünlük verdiyini nəzərə alsaq, o zaman uşaqların allergik xəstəliklərə yoluxma səbəbini anlamış olarıq.

Mütəxəssislər təklif edirlər ki, mümkün qədər sadə, rəngsiz, ətirsiz bərk sabunlardan istifadə edilsin. Əlləri hər dəfə sabunla yumaq zərər vurur. Gündə 1-2 dəfə sabunla yumaq, digər vaxtlarda adi su ilə yumaq lazımdır. İfrat gigiyena fayda vermir, əksinə, zərər verir. Uşaqlarımızı da nə qədər ətraf aləmdən, toz torpaqdan qoruyuruqsa, onların immuniteti o qədər zəif olur, tez-tez xəstələnirlər.

**Lalə Mehralı**

SON SƏHİFƏ

# Səs

24 noyabr
2021-ci il

# Evdə COVID-19 xəstəsi varsa yoluxma riskini necə azaltmaq olar?



Bu səbəbdən yeni yoluxmuş insanın qaldığı evdə digərlərinin maska taxması lazımdır. Maskanı tez-tez dəyişdirmək lazımdır. O zaman biz ailə üzvlərini daha böyük əminliklə infeksiyadan qoruya bilərik.

Pəncərələri açaraq mənzili mümkün qədər daha tez-tez havalandırmaq lazımdır - təmiz hava axını otaqdakı virus hissəciklərinin konsentrasiyasını azaldır. Müntəzəm olaraq otağı nəm parça ilə silmək. Evin bütün səthlərini, xüsusən də ən çox toxunulan səthləri xlor tərkibli vasitə ilə təmizləmək.

# Zidan PSJ-ni çalışdıracaq?



**"Real"ın sabiq baş məşqçisi Zinəddin Zidan PSJ-yə rəhbərlik edə bilər. Bu barədə "Marca" nəşri məlumat yayıb. İddiaya görə, Paris klubunun futbolçuları hesab edirlər ki, 49 yaşlı mütəxəssis yaxın vaxtlarda komandaya baş məşqçi təyin olunacaq.**

Bildirilir ki, futbolçular arasında söhbətdə Zidanın adı tez-tez hallanır. Onlar klubda baş verənlərdən məlumatlıdırlar və yaxın vaxtlarda dəyişikliyin baş verəcəyini gözləyirlər.

Yayılan xəbərlərə görə, PSJ-nin hazırkı baş məşqçisi Maurisio Poçettino "Mançester Yunayted"ə keçəcək. Onu isə hazırkı vəzifəsində Zidan əvəzləyəcək. Xatırladaq ki, hazırda PSJ 37 xalla Fransa Liqasında liderdir.

# Minik avtomobili

## avtobusla toqquşub, bir nəfər həlak olub



Sabunçu rayonunun Maştağa qəsəbəsi ərazisində Bakı şəhər sakinləri Rahim Həbibovun idarə etdiyi "Lada Granta" markalı avtomobil və A.Əliyevin 186 saylı marşrut xətti üzrə idarə etdiyi "Daewoo" markalı avtobus toqquşub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nəticədə R.Həbibov aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

## Qəbələdə mikroavtobus yanıb



Qəbələ rayonunun Zarağan kəndində "Ford" markalı mikroavtobus yanıb. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Hər dərdin dərmanı



Zeytun ta qədimdən insanların qidalanmasına daxildir. Bizim eramızda çox-çox əvvəl zeytundan yağ hazırlanırdı, zeytun qidada istifadə olunurdu. Dahi həkim Avisenna zeytunu "hər dərdin dərmanı" sayırdı. Qədim yunanlar zeytun yağını "duru qızıl" adlandırırdılar.

Zeytun çox zəngin kimyəvi tərkibə malikdir. Onun tərkibində əvəzolunmaz Omeqa-6 yağlı turşular, orqanik turşular, zülallar, qida lifləri, C, PP, E, A, K, B qrupu vitaminləri, beta-karotin, fosfor, dəmir, kalium, maqnezium, mis, kalsium, sink və s. minerallar var.

Omeqa-6 yağlı turşular ürək-damar və beyin üçün olduqca xeyirlidir. Bu maddələr orqanizmdə "pis" xolesterinin səviyyəsini aşağı salır, damarları təmizləyir. Pis xolesterin aterosklerozun inkişafının əsas səbəbidir. Ateroskleroz isə infarkt, insult kimi ağır pozulmaların inkişafına səbəb olur.

Zeytun və zeytun yağı insanın mədə-bağırsaq sistemi də üçün çox faydalıdır. Zeytun qara ciyərin və öd kisəsinin fəaliyyətini stimullaşdırır, ödqovucu təsir edir, öd kisəsində durğunluğun qarşısını alır.

Zeytun yağı və zeytun qəbizlikdən əziyyət çəkən insanlara yaxşı kömək edə bilər. Bunun üçün qidalanmanıza zeytun yağı və zeytun əlavə olunmuş tərəvəz salatları tez-tez daxil edin. Qəbizliklə mübarizədə sizə bu kimi sadə vasitə kömək edə bilər - 1 stəkan qatığa 1 çay qaşığı zeytun yağı əlavə edin, yaxşı qarışdırın və qəbul edin. Qədimdə zeytun "qəliblərin yeməyi" sayılırdı. Zeytun kalorili məhsuldur. Zeytun insana əlavə eneji verir, insanı daha gümrah edir, iş qabiliyyətini artırır.

Zeytun E vitamini ilə zəngindir. Bu vitamin çox güclü antioksidantdır. Antioksidantlar orqanizmdə gedən qocalma prosesləri ləngidir, hüceyrələri bərpa edir, orqanizmi xərçəng xəstəliklərindən qoruyur. Ümumilikdə belə hesab olunur ki, zeytun xərçəngin profilaktikası üçün ən yaxşı vasitələrdən biridir. Belə ki, zeytunun tərkibində olan nadir xeyirli maddələr liqnanlar qadınları süd vəzi xərçəngindən qoruyur, digər nadir maddə skvalen dəri xərçənginin inkişafının qarşısını alır.

Lakin zeytunun bu xeyirli xüsusiyyətindən faydalanmaq üçün təbii zeytundan və keyfiyyətli zeytun yağından istifadə etmək lazımdır.

## Başsağlığı

Səməd Yusifov, Səlahəddin Yusifov, Camal Mustafayev və Yaşar Əhmədov ADNSU-nun Ümumi və tətbiqi riyaziyyat kafedrasının müdiri professor Araz Əliyevə atası professor

**Rafiq Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət etsin!**

## ELAN

Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi Baş Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən "Reyhan" MMC-yə verilmiş 115 nömrəli, Qurbanova Ülkər Maarif qızına verilmiş 226 nömrəli və Mustafayev Ramazan Niyazi oğluna verilmiş 216 nömrəli qeydiyyat vəsiqələri itirilmişdir. Tapan şəxslərdən +994772504011 mobil nömrə ilə əlaqə saxlanılması xahiş olunur.

***

Yeni Azərbaycan Partiyası tərəfindən Quliyev Emin Qulu oğlunun adına verilmiş 539199 saylı üzvlük vəsiqəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**